www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 dekabr 2017-ci il Cümə axşamı № 256 (6870) Qiymәti 60 qәpik

Xəbər

## MSK etik qaydaları pozan deputatı mandatdan məhrum edəcək

yazısı səh.2-də

Gündəm

## Yeni nazir kollektivə təqdim olundu



Vergi orqanlarında dəyişiklik gözləntisi

yazısı səh.5-də

## Azərbaycan İƏT dövlətlərinin vətəndaşlarına təhsil qrantları verəcək

yazısı səh.2-də

## Sürix protokolları Azərbaycanı təhdid edirmi...

yazısı səh.6-da

## ABŞ Dövlət Departamenti Saakaşvilinin müdafiəsinə qalxdı

yazısı səh.9-da

## "Azərbaycanın ən zəngin rəssamı mənəm" - Əşrəf Heybətov

yazısı səh.10-da

## Aİ-yə inteqrasiya - müqəddəratımız onlardan asılı olur?

yazısı səh.9-da

## Ermənistanın Ağdam təxribatı, həmsədrlərin danışıq şousu...

yazısı səh.11-də

## BOK Rusiya idmanının "belini" qırdı

yazısı səh.12-də

## Ölkəmizdə yeni dini bölücülük təhlükəsi

yazısı səh.14-də

## Valideynlərin sosial şəbəkə aludəçiliyi övladlarına mənfi təsir edir

yazısı səh.15-də

## İki güclü gürcü lider - Stalin və Mişa...

yazısı səh.13-də

## iPhone X telefonları satışda: orijinalı necə tanımalı...

yazısı səh.15-də

## Kreml Bakının mövqeyi ilə razılaşdı

# PUTİNDƏN ÖLKƏMİZƏ BÖYÜK JEST - SƏFİR MƏSƏLƏSİNDƏ ANLAŞMA

Rusiya yeni səfirlə bağlı Azərbaycanın mövqeyinə "hə" dedi; XİN başçısı SergeyLavrovun "dili və qulağı" sayılan Mariya Zaxarova ölkəmizə başqa səfirin göndəriləcəyinibəyanladı; Doroxinin xələfi kim olacaq, erməni dairələrin körüklədiyi siyasi qalmaqal qapandımı?..




yazısı səh.8-də

# Dörd icra başçısı səksəkədə

Xaləddin İsgəndərov, Ramiz Yediyarov, Alimpaşa Məmmədov və Rəcəb Babaşovun yuxusu ərşə çəkilib, yaxın günlərdə onlar da işdən çıxarıla bilər

yazısı səh.3-də



## Avropa Şurası İlqar Məmmədovla bağlı Azərbaycana qarşı prosedura başladı

yazısı səh.4-də



## Fazil Məmmədovla Cahangir Hacıyevi birləşdirən "səhhət" məsələsi

yazısı səh.3-də



*Mehman Əliyev:*

## "Azərbaycanda strukturlaşmış güclü hakimiyyət var"

yazısı səh.7-də

# 7 dekabr 2017



## Azərbaycan İƏT dövlətlərinin vətəndaşlarına təhsil qrantları verəcək - sərəncam

**Azərbaycan prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycanın ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, 2018-ci ildən başlayaraq İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris dilinə uyğun hazırlıq kurslarında və ali təhsilin bakalavriat, magistratura, doktorantura, tibb təhsili üzrə əsas təhsil və rezidentura səviyyələrində təhsil qrantı proqramı təsis edilib.

Təhsil alanlar üçün təhsil qrantının say həddi hər il 20 nəfər olmaqla 5 il ərzində 100-ə çatdırılır, həmin qrant dövlət hesabına ödənilən təhsil haqqı, viza, qeydiyyat, yataqxana və ya mənzil kirayəsi, gündəlik qidalanma, tədris ədəbiyyatı ilə təminat, nəqliyyatdan (taksi xidmətindən başqa) istifadə, kommunal xidmətlər, tibbi yardım və ildə bir dəfə ölkələrinə gediş-gəliş xərclərini əhatə edir.

Maliyyə Nazirliyinə təhsil qrantı ilə bağlı xərclərin müvafiq illərin dövlət büdcələrində nəzərə alınmasını təmin etmək tapşırılıb.

## "Qüdsün statusu ilə bağlı hər hansı yanlış addım İslam dünyasında hiddətə səbəb olacaq" - Ərdoğan



**"Qüds (Yerusəlim) şəhəri bütün müsəlmanların göz bəbəyidir". APA-nın xəbərinə görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İordaniya kralı Abdullahla mətbuata birgə bəyanatlarla çıxış edərkən deyib.**

Türkiyə prezidenti bildirib ki, Qüds şəhərinin hüquqi statusunu dəyişdirəcək addım atılmamalıdır: "Qüdsün statusu ilə bağlı atılacaq hər hansı yanlış addım İslam dünyasında hiddətə səbəb olacaq. Qüdsün müqəddəsliyi və tarixi statusunun mühafizəsi məsələsində İordaniya ilə mövqeyimiz eynidir".

**Ərdoğan Qüds şəhəri ilə bağlı dünya ölkələrinə müraciət edib:** "Qüdsün Birləşmiş Millətlər Təşkilatının qərarları ilə müəyyən edilmiş hüquqi statusunu dəyişdirəcək istənilən addımdan uzaq durulmalıdır. Şəxsi istəklərə görə sayı milyarddan çox olan müsəlmanların taleyi ilə oynamağa heç kimin haqqı yoxdur".

İordaniya kralı isə deyib ki, Qüdslə bağlı narahatlığını ABŞ prezidenti Donald Trampa çatdırıb.

Qeyd edək ki, ABŞ prezidenti dekabrın 6-da D. Tramp Qüdsün İsrailin paytaxtı kimi tanındığını rəsmi elan edəcəkdi. Qəzetimiz çapa gedənədək həmin qərar elan olunmamışdı.

## Azərbaycanda iki nəfərdə paraqrip, bir nəfərdə adenovirusu aşkarlandı

**"Azərbaycanda oktyabrın 1-dən, yəni qrip müayinələri mövsümünün başladığı gündən indiyə qədər, Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasının laboratoriyasına ölkənin müxtəlif şəhər və rayonlarından təxminən 63 şübhəli yaxma nümunəsi daxil olub".**

Bunu "Report"a açıqlamasında stansiyanın direktor müavini Rita İsmayılova bildirib.

Onun sözlərinə görə, nümunələrin müayinəsi nəticəsində xüsusi təhlükəli kəskin respirator xəstəliklərinin törədiciləri aşkar edilməyib: "Sadəcə, qripə bənzər respirator xəstəliklərin növü olan 2 paraqrip və 1 adenovirusu aşkar olunub. Bunlar qrip sayılmır, sadəcə, simptomlar oxşar olur. Yəni yüksək hərarət, boğaz ağrısı, öskürək, ürək bulanma, halsızlıq, nadir hallarda qusma da olur".

R.İsmayılova qeyd edib ki, 51 yaxma nümunəsi 17 yaşına qədər insanlardan götürülüb: "Xəstələrin adətən həkimə müraciət etməməsi nəticəsində qripin ağırlaşmaları baş verir ki, bu da müxtəlif fəsadlara səbəb olur.

Xəstə aşkar olunan kimi dərhal həkimə müraciət edərək onun təyin etdiyi dərmanlarla müalicə olunsun".

# MSK etik qaydaları kobud şəkildə pozan deputatı mandatdan məhrum edəcək

## Növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı qaydalar da dəyişir

**Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı qaydalarda dəyişiklik edilir. APA-nın məlumatına görə, bu, Seçki Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb.**





Layihəyə əsasən, məcəllənin 179-cu (Növbədənkənar prezident seçkilərinin keçirilməsi) maddəsində növbədənkənar prezident seçkiləri Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edildikdən sonra 3 ay yox, 60 gün ərzində keçiriləcək.

Layihə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sabah keçirilən iclasında müzakirəyə çıxarılacaq.

Milli Məclisinin deputatı qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə və səsvermə hüququnun şəxsən həyata keçirilməsi qaydasını pozduqda isə mandatdan məhrum ediləcək.

Bununla bağlı Seçki Məcəlləsinin 175-ci (Milli Məclisin deputatının mandatdan məhrum edilməsi haqqında qərarın qəbul edilməsi) maddəsinə əlavələr edilir.

Layihəyə görə, maddənin 3-cü bəndində bildirilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 2, 4 və 5-ci bəndləri ilə yanaşı, 6-cı və 7-ci bəndlərində də göstərilən əsaslar olduqda, deputatın mandatdan məhrum edilməsi haqqında qərar Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən qəbul ediləcək.

Deputat MSK-nın qərarından müvafiq məhkəməyə şikayət verə bilər.

Xatırladaq ki, Konstitusiyanın 89-cu maddəsinin 6-cı və 7-ci bəndi müvafiq olaraq aşağıdakı kimidir:

6-cı bənd: deputat Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini (Azərbaycan Respublikası Milli Məclisinin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər) pozduqda;

7-ci bənd: deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.

Layihə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sabah keçirilən iclasında müzakirəyə çıxarılacaq.

## Xəzərin hansı prinsiplər əsasında bölündüyü açıqlandı

**"Konvensiyaya əsasən, xəzəryanı ölkələr suverenlik, suveren hüquqlar, müstəsna hüquqlar və yurisdiksiyaların həyata keçirir. Xəzərin su səthində 15 mil məsafədə su zonası, 10 mil məsafədə isə balıqçılıq zonası müəyyən olunur. Qalan hissələr isə gəmiçilik və digər məqsədlər üçün ümumi istifadə üçün nəzərdə tutulur".**

APA-nın məlumatına görə, bunu xarici işlər nazirinin müavini, Xəzərin hüquqi statusuna dair işçi qrupunun Azərbaycandan olan üzvü Xələf Xələfov deyib.

Nazir müavini qeyd edib ki, dənizin dibi isə tamamilə üzbəüz və yanakı dövlətlər üçün sektoral bölünür: "Ümumi istifadə nəzərdə tutulmur. Boru kəmərlərinin çəkilməsi ilə bağlı hüquqlar təsbit olunub. Borular çəkilərkən hansı ölkənin sektorundan keçəcəksə, həmin ölkə ilə ikitərəfli əsasda razılaşdırılacaq. Dənizlərin sektorlara bölünməsi ilə bağlı beynəlxalq hüququn müvafiq anlayışları var. Burada materik və materik ərazisinin davamı olaraq adalar da nəzərə alınır. Ölkələrin sərhədindən, sərhədin uzunluğundan asılı olaraq, razılaşdırılmış metod əsasında bölgü aparılacaq".

"Konvensiyada Xəzər dənizində gəmiçilik məsələləri, tərəflərin bir-birinə xələl gətirməyən hərbi balansının qorunması əsas götürülür", - deyə o vurğulayıb.



## NATO Bakıda Azərbaycan hərbçilərinə təlim keçir

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2017-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq proqramına əsasən, NATO-nun Brunssumda yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu tərəfindən Bakıda "Birgə əməliyyat və qiymətləndirmə" mövzusunda təlim kursu keçirilir.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Silahlı Qüvvələrin Hərbi Akademiyasında keçirilən tədbir müddətində NATO nümayəndə heyəti tərəfindən iştirakçılara "NATO-nun hərbi strukturu", "NATO-da hərbi tərəfdaşlıq", "Əməliyyat planlaşdırma prosesi", "Əməliyyatların qiymətləndirilməsi", "Məlumatların toplanılması və təhlili" və digər mövzular barədə məlumatlar verilir, eləcə də müxtəlif məşğələlər təşkil edilir.

Dekabrın 8-dək davam edəcək tədbirdə Silahlı Qüvvələrin müxtəlif qoşun növlərindən hərbi qulluqçular iştirak edir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



## Elmar Məmmədyarov Vyanada həmsədrlərlə görüşdü

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Vyanada həmsədrlərlə görüşü baş tutub.**

APA-nın məlumatına görə, bu barədə Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev twitter mikrobloqunda yazıb.

Görüşə ATƏT-in Minsk Qrupu həmsədrləri - amerikalı Endryu Şofer, fransalı Stefan Viskonti, rusiyalı İqor Popov və ATƏT-in fəaliyyətə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik də qatılıb.

Nazir həmsədrlərlə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını müzakirə ediblər. H.Hacıyev bildirib ki, Azərbaycan substantiv danışıqlar vasitəsilə ATƏT-in Minsk Qrupu həmsədrləri ilə birlikdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərini davam etdirəcək.

Daha sonra E. Məmmədyarovun Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanla da görüşüb.

## Sumqayıtda iki nəfərin ölümündə şübhəli bilinən sürücü tutuldu

**Sumqayıt şəhərində iki nəfərin ölümündə şübhəli bilinən sürücü tutulub.**

Baş Prokurorluqdan musavat.com-a verilən məlumata görə, dekabrın 5-də saat 07 radələrində Sumqayıt şəhəri, Sülh küçəsində piyada keçidində 1971-ci il təvəllüdlü Beybudov Məhəmməd Əmir oğlu idarə etdiyi "Hyundai County" markalı, 90 AD 889 dövlət qeydiyyat nişanlı avtomobillə yolu keçən 1969-cu il təvəllüdlü Arzuyə Abdullayeva və 1988-ci il təvəllüdlü Nüşabə Rzayevanı vurub, nəticədə hər iki piyada aldığı xəsarətlərdən hadisə yerində vəfat ediblər.

Fakta görə Sumqayıt Şəhər Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 263.3-cü (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanaraq təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilmiş, o cümlədən müvafiq ekspertizalar təyin edilib.

M.Beybudov iş üzrə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

**Vergilər naziri Fazil Məmmədovun işdən çıxarılması geniş müzakirələrə səbəb olub. Milli Məclisin İqtisadiyyat, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov Fazil Məmmədovun işdən çıxarılmasını şərh edərkən deyib ki, sabiq nazirin xəstəliyi vardı və bundan xeyli əziyyət çəkirdi. Buna görə də özü ərizə yazıb işdən getməsini istəyibmiş. F.Məmmədovun öz ərizəsi əsasında işdən getməsi Beynəlxalq Bankın prezidenti Cahangir Hacıyevin öz ərizəsi ilə işdən getməsini yada salır.**

# Fazil Məmmədovla Cahangir Hacıyevi birləşdirən "səhhət" məsələsi

## Sabiq vergilər nazirinin gedişi Beynəlxalq Bank sədrinin istefasını xatırladır; Məmmədovun da komandasında həbslər ola bilər

2015-ci ilin martında elan olundu ki, Cahangir Hacıyev səhhətində olan problemləri əsas gətirərək vəzifəsindən getməsi haqda istefa ərizəsi yazıb. 18 mart 2015-ci ildə Azərbaycan Beynəlxalq Bankının Müşahidə Şurası onun istefasının qəbul olunması və vəzifəsindən azad edilməsi barədə qərar qəbul edib. Bildirilirdi ki, ölkə rəhbərliyindən xahiş edib ki, səhhəti ilə bağlı onu tutduğu vəzifədən azad etsin. Xəbərlər yayılırdı ki, C.Hacıyev xaricə köçməyə hazırlaşır, ona görə istefa ərizəsi yazıb. Amma az keçmədi ki, Cahangir Hacıyevin maliyyə xəyanətinə görə işdən çıxarılması üzə çıxdı. Məlum oldu ki, səhmlərinin çoxu dövlətə məxsus olan Beynəlxalq Bankından külli miqdarda vəsaitlər "xortumlanıb", xeyli iş adamına böyük və geri qaytarılacağı şübhə doğuran kreditlər verilib. C.Hacıyevin süpürgəçisindən sürücüsünə, gözətçisindən evindəki xadiməyə, katibəsindən köməkçisinə qədər ətrafında və münasibəti olan hər kəsin adına kreditlər yazılaraq götürülüb. Həmin məbləğlər bir çox hallarda heç bir perspektivi olmayan layihələrə yönləndirilib. Cahangir Hacıyev 20 ilə yaxın Azərbaycanın ən böyük bankına rəhbərlik etmişdi. Fazil Məmmədov da sıradan bir nazir deyildi. Üstəlik də onun idarəetməsinə Binəqədi, Şəmkir, İsmayıllı və Gədəbəy rayonları, ATA Holdinq kimi nəhəng bir təsisat vardı. Hazırda F.Məmmədovun öz ərizəsi ilə işdən getməsi haqda məlumatlardan savayı ortalıqda rəsmi bir məlumat yoxdur. Amma çoxsaylı iddialar var.

18 il vergi sisteminə rəhbərlik edən şəxsin işdən çıxarılması çox qəfil oldu deyə belə iddiaların həqiqiliyinə inam da çoxdur. Hətta Fazil Məmmədovun işdən çıxarılması xəbərini mətbuatdan öyrəndiyi də bildirilir. İşdən çıxarıldığı gün Fazil Məmmədov həmişə olduğu kimi işə gəlib. Vergilər Nazirliyində dövlət büdcəsinin proqnoz gəlirlərinin icrası və Vergilər Nazirliyinin qarşısında duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirib. İşçilərə konkret tapşırıqlar verib. Bir neçə saat sonra isə mətbuatdan işdən çıxarılması haqda





məlumat alıb. İşdən çıxarılması Fazil Məmmədovun özü üçün də sürpriz olub. Sabiq səhiyyə naziri, hazırda həbsdə olan Əli İnsanov da işdən oxşar şəkildə çıxarılmışdı. Fazil Məmmədovu vergilər naziri postunda əvəzləyən Mikayıl Cabbarovun sələfi Misir Mərdanov da özünün işdən çıxarılmasını Bakıda keçirilən beynəlxalq tədbirdə eşitmişdi.

Belə iddialar var ki, Fazil Məmmədovun çox ciddi bir qalmaqallı işə adı qarışıb, bu üzdən onun barəsində qəfil siyasi qərar verilib. Hələlik onun hansı bir işin üzərindən güdazına getməsi bəlli deyil. Fazil Məmmədov sıradan bir nazir deyildi. Qəfil işdən çıxarılması çox ciddi siqnal da ola bilər. Hazırda müxtəlif iddialar, versiyalar var. Fazil Məmmədovun "MTN işi" ilə bağlı işdən çıxarılmasından tutmuş iri və hakimiyyətə yaxın vergi ödəyicilərini incidilməsinə qədər hərəkətlərə yol verməsi söhbətlərin əsas mövzusudur. Daha çox inandırıcı versiya budur ki, F.Məmmədov və komandası çox böyük maliyyə sapmalarına yol verdiyi üçün siyasi rəhbərliyin qəzəbinə tuş gəlib. Vaxtilə qəfil işdən çıxarılan Misir Mərdanovun yerinə təhsil naziri göndərilən Mikayıl Cabbarovun sonrakı aylarda atdığı addımlarla köhnə təhsil klanı tamamilə işdən kənarlaşdırıldı. M.Cabbarov oturumuş klanlara qarşı radikal mövqe tutması ilə tanındı. Bu gün Təhsil Nazirliyində M.Mərdanov klanından əsər-əlamət qalmayıb. Bu baxımdan M.Cabbarov sınaqdan çıxmış kadrdır. Fazil Məmmədovun qəfil gedişinin arxasında gizlənən məqamlar çox keçməz ki, mətbuatın, ictimaiyyətin müzakirəsinə çıxarılar.

❑ **E.HÜSEYNOV**

# Dörd icra başçısı səksəkədə

## Xaləddin İsgəndərov, Ramiz Yediyarov, Alimpaşa Məmmədov və Rəcəb Babaşovun yuxusu ərşə çəkilib, yaxın günlərdə onlar da işdən çıxarıla bilər









**Vergilər naziri Fazil Məmmədovun vəzifəsindən çıxarılması onun kurasiyasında olan rayonların icra başçılarının yuxusuna haram qatıb. İlk növbədə F.Məmmədovun bacısının həyat yoldaşı olan Binəqədi rayon icra başçısı Xaləddin İsgəndərov çıxılmaz duruma düşüb. 2015-ci ildə Azadlıq prospektindəki 16 mərtəbəli yaşayış binasının yanmasından sonra bilinmişdi ki, binaya tezalışan üzlük onun icazəsi və tələbi ilə vurulub. Lakin həmin dövrdə X.İsgəndərov yanğın olayında yaxasını kənar saxlaya bilmişdi. Halbuki ilk sorğu-suala tutulmalı olan şəxs məhz Xaləddin İsgəndərov idi. Məlum idi ki, Xaləddin İsgəndərovun istintaqdan kənar qalması böyük və əsas nazirliklərdən birinə başçılıq edən qohumunun xahişlərinə söykənir. Həmin vaxt binadakı yanğının külünə binanın üzlənməsi işini həyata keçirmiş "Global Stone" şirkətinin təsisçisi Miryusif Mahmudovu "bulaşdırdılar". M.Mahmudov məhkəmədə bildirmişdi ki, binanın üzlənməsi təklifi Xaləddin İsgəndərovdan gəlib, ortaya icra başçısının imzası ilə sənəd də çıxarıldı.**

Həbsə göndərilənlərdən biri də X.İsgəndərovun 1-ci müavini işləmiş Qəzənfər Novruzov oldu. Onun həbsinin X.İsgədərovun ikinci plana keçirilməsi üçün atılan addım olduğu da bilinirdi. Həmin dövrdə F.Məmmədovun qohumu X.İsgəndərov yanğın olayından başqalarını qurban verməklə çıxarıldı. İndi isə Fazil Məmmədov vəzifəsini itirib, onun özü ilə bağlı qeyri-müəyyənlik hökm sürür.

Uzun illər F.Məmmədov onun "qubernatorluğuna" daxil olan rayonların icra başçılarını qohumu Xaləddin İsgəndərovun üzərindən idarə edirdi. Gədəbəyin icra başçısı Ramiz Yediyarov, Şəmkirin icra başçısı Alimpaşa Məmmədov və Yardımlının icra başçısı Rəcəb Babaşov vaxtilə vergilər sistemində yüksək postlar tutmuşdular. Hazırda gecəsi-gündüzünə qarışan başçılardan biri də Gədəbəyin icra başçısı, sahibkarların qəniminə çevrilən Ramiz Yediyarovdur. Fazil Məmmədovun vəzifəsindən qəfil çıxarılmasından sonra R.Yediyarovu kabinetində çox pəjmürdə görüblər. Yada salaq ki, Ramiz Yediyarov icra başçısı təyin olunana qədər Şəmkir rayon Vergilər Şöbəsinin rəisi postunu tuturdu. Sabiq vergilər nazirinin daha bir kadrı Qazaxdan ardımlıya icra başçısı gön - dərilən Rəcəb Babaşovdur. R.Babaşov icra başçısı postuna Vergilər Nazirliyində İri Vergi Ödəyiciləri Departamentinin rəisi vəzifəsindən gətirilib. Keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlu ilə qudadır. R.Babaşov Sabirabadda, paytaxtda, ölkənin bir çox regionlarında və hətta xaricdə böyük mal-mülk sahibidir. R.Babaşovun MTN generalları ilə münasibətlərini tənzimləyən Vergilər Nazirliyinin Vergi Cinayətlərinin Təhqiqi Departamentinin rəisi olmuş, hazırda "MTN işi" ilə bağlı həbsdə olan Vidadi Məmmədov idi. Xəzər rayonu ərazisində MTN rəhbəri Eldar Mahmudova məxsus villanın xərcinin bir hissəsini R.Babaşov tərəfindən ödənildiyi haqda iddialar da vardı. Fazil Məmmədovun bu kadrının da adı sahibkarlara qarşı qanunsuzluqlarda keçir. Bakı Vergilər Departamentində rəis müavini işləmiş R.Babaşovun avtoyuma məntəqələri, ticarət obyektləri, restoranları və s. ticarət obyektləri var.

Sabiq vergilər nazirinin daha bir kadrı Şəmkirin icra başçısı Alimpaşa Məmmədovdur. Vergilər Nazirliyi Bakı Şəhər Vergilər Departamentinin rəisi vəzifəsində çalışmış A.Məmmədov 2014-cü ildə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. O, nazirlikdə ən müxtəlif vəzifələrdə işləyib və F.Məmmədovun "vuran əli" sayılıb. Hələ 2014-cü ildə musavat.com yazmışdı ki, Salyanda işləyərkən sahibkarlarla qanunsuz rəftarına görə barəsində prokurorluqda cinayət işi başlanıb. Buna görə də nazir onu Şəmkirə göndərib. Hazırda Fazil Məmmədovun kadrları olan icra başçıları təşviş içindədirlər. Yaxın günlərdə F.Məmmədovun taleyinin necə olacağı bilinəcək və icra başçılarının da fərmanı verilmiş olacaq.

❑ **E.HÜSEYNOV**

### İşdən çıxarılan nazirdən ilk açıqlama: "Təşəkkür edirəm...."

**Ötən gün prezident İlham Əliyevin sərəncamı ilə vergilər naziri Fazil Məmmədov vəzifəsindən azad olunaraq onun yerinə təhsil naziri Mikayıl Cabbarov təyin edilib.**

Bizimyol.info xəbər verir ki, dövlət başçısının müvafiq qərarından sonra bir sıra KİV-də, sosial şəbəkələrdə vergilər nazirinin vəzifəsindən azad olunması ilə bağlı çoxlu müzakirələr aparılıb. Onun işdən azad olunması ilə bağlı çoxsaylı fikirlər səsləndirilib.

Bizimyol.info saytı müzakirə olunan məsələlər haqda ötən gün vəzifəsindən azad olunan Fazil Məmmədova zəng edib. Eks nazir açıqlamasında prezidentin qərarının müzakirə edilməz olduğunu bildirib: "Cənab prezident məni sərəncam verərək işdən azad edib. Bu barədə səlahiyyətlər prezidentə aiddir və müzakirə olunmur. Mən təşəkkür edirəm. Prezident nə məsləhət bilib, odur. Səhhətimdə az problem var, yaxşıyam, narahat olmayın. Mən bütün jurnalistlərə təşəkkür, minnətdarlıq edirəm".

# Qətldə suçlanan “AST Telman”la Ziya Məmmədovu birləşdirən daha bir halqa

## Keçmiş nazirin və oğlunun ətrafında da müəmmalı ölüm işləri baş verib; açılmamış cinayətlər...





**Rusiya İstintaq Komitəsi azərbaycanlı iş adamı Telman İsmayılova 2 qətl hadisəsi ilə bağlı ittiham irəli sürüb. Rusiya İstintaq Komitəsinin yaydığı xəbərdə deyilir ki, qətl hadisələri ilə bağlı başlanan cinayət işi üzrə Telman İsmayılovun təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunması ilə bağlı qərar qəbul edilib. İstintaq Komitəsi əmindir ki, T.İsmayılov ötən il baş verən iş adamları Vladimir Savkin və Yuri Brılevin qətllərinin planını qardaşları Rafiq və Vaqif İsmayılovlarla birgə həyata keçirib. Cinayəti həyata keçirən isə Mehman Kərimov olub. Bundan başqa, T.İsmayılov qanunsuz silah dövriyyəsində də ittiham olunur. Hazırda o, İnterpol xətti ilə beynəlxalq axtarışa verilib...**

T.İsmayılovun Azərbaycanda ən çox təmas saxladığı sabiq nazirlərdən biri də Ziya Məmmədovdur. Onun da ətrafında müəmmalı ölüm işləri olub. Məsələn, “Yeni Müsavat”ın 23.06.2010-cu il tarixli sayında “Ziya Məmmədovun adı şübhəli ölüm işində” (http://musavat.com/news/ziya-memmedovun-adi-subheli-olum-isinde_79305.html ttp://musavat.com/news/ziya-memmedovun-adi-subheli-olum-isinde_79305.html) sərlövhəli yazı dərc olunub. Sabiq nazirin adı Dövlət Dəmir Yol İdarəsinin rəisi işləmiş Adil Məmmədovun müəmmalı ölümündə hallanırdı. Bu haqda qəzetə açıqlama verən A.Məmmədovun qardaşı F.Məmmədov demişdi ki, qardaşının həyat yoldaşı söhbət zamanı ona Adilin Ziya Məmmədov tərəfindən öldürüldüyünü deyib. Sitat: “Mən Şəlalədən niyə telefona cavab vermədiyini və vaxtında təcili yardım çağırmadığını soruşanda o, rusca ”Eqo Ziya ubil da" deyə cavab verdi"...

Z.Məmmədovun oğlu Anar Məmmədovun adının mərkəzi fiqur kimi keçdiyi bir ölüm işi haqda 2013-cü ilin iyul ayının 17-də Türkiyənin “Hürriyet” qəzetində Yalçın Bayerin köşə yazısında bəhs edilirdi. Yazıda nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun mühafizəçisi olan bir Türkiyə vətəndaşının güllələnməsindən bəhs edilirdi. Bu, Məmmədovlar ətrafında olan və güllə yarası alan ilk mühafizəçi deyildi. Hələ onu bəxti gətirmişlərdən də saymaq olar. Salyan qəbiristanlığında Anar Məmmədovun mühafizəçisi olmuş Nizami Dadaşov adlı şəxsin qəbri var. Bu şəxs 2000-ci ilin mayına qədər A. Məmmədovun mühafizəçisi olub. İdmançı olan həmin şəxs güllə ilə vurularaq öldürülüb. Rəsmi versiyalarda onun avtomobil qəzasında həlak olduğu iddia edilib. Amma camaat arasında belə söhbət gəzir ki, meyiti yuyan molla “mərhumun bədənində güllə yarası var” sözlərini ağzından qaçırıb. Bundan sonra bir neçə gün yoxa çıxıb, sonra isə bu söhbəti tamamilə “unudub”. N.Dadaşovun öldürülməsindən bir müddət sonra Ziya Məmmədovun başqa bir mühafizəçisi, Şimali Qafqazdan olan Altaf adlı idmançı yoxa çıxıb. Mühafizəçi Azərbaycan vətəndaşı olmadığına görə onun necə yoxa çıxdığı, öldüsü-qaldısı bu gün də bilinmir.

Z. Məmmədovun daha bir mühafizəçi, Masallıdan olan Eldəniz Qurbanovu 2008-ci il, martın 1-də qətlə yetiriblər. Bu günə qədər bu qətlin hansı şəraitdə törədilməsi ictimaiyyətdən gizlədilir.

Z.Məmmədovun Cəmil adlı cangüdəni isə vaxtilə Salyanın Qaraqaşlı kəndində yaşayıb. O, nazirin mühafizəsindən ayrılandan sonra ciddi təqiblərə məruz qalıb. Onu uzaq Sibirdə aşkarlayıb qətlə yetiriblər. 2014-cü il iyulun 11-də “Garant Sığorta” ASC-nin İdarə Heyətinin üzvü Natəvan Əliyevanın meyiti yaşadığı ünvanda aşkarlanmışdı. Salyandan olan bu xanımın evində usta işləmiş şəxs tərəfindən öldürüldüyü açıqlanmışdı...

Rusiya İstintaq Komitəsi Ziya Məmmədovun yaxın dostu “AST Telman” kimi tanınan Telman İsmayılovun həbsinə qərar verənə qədər də onun adı hazırda cinayət işi materiallarında qətllərin sifarişçisi kimi çəkilirdi. Uzun illər istintaqçılar bu məlumatların nə dərəcədə həqiqət olduğunu dəqiqləşdirə bilmirdilər. T.İsmayılov Rusiya hakimiyyət dairələri ilə əlaqələri üzərində istintaqçıların sərt suallarından illərlə yayına bilirdi. Hazırda isə onun əlaqələri zəifləyib və yox dərəcəsinə düşüb. Odur ki, istintaqçılar hərəkətə keçiblər. Onun Azərbaycandakı dostlarının da əlaqələrinin zəiflədiyi bir dönəmdə həmin şəxslərin də vaxtilə adları keçən işlər üzrə sorğu-sual ediləcəyi istisna deyil...

❑ **E.HÜSEYNOV**

# Qəzetlərin ƏDV gözləntisi doğrulacaqmı...

**Gələn il yanvarın 1-dən Azərbaycana idxal edilən qəzet kağızı idxal gömrük rüsumundan tam azad edilib.**

Xatırladaq ki, Nazirlər Kabinetinin təsdiq etdiyi “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”nə əsasən rulonlarda və ya vərəq şəklində ölkəyə gətirilən qəzet kağızına 0,50 faiz gömrük rüsumu tətbiq edilir. Gələn il yanvarın 1-dən bu növ qəzet kağızına idxal gömrük rüsumu tətbiq olunmayacaq. Bundan əlavə, yarımsellülozdan və saman kütləsindən büzmə üçün kağız da 0,50 faizlik idxal gömrük rüsumundan azad olunub.

Onu da qeyd edək ki, Azərbaycanda yazılı çap mediası ötən ildən bəri ölkəyə idxal olunan qəzet kağızının Əlavə Dəyər Vergisindən azad olunmasını təklif edir. Məsələ burasındadır ki, qəzet kağızının idxalı uzun müddət ƏDV-dən azad olub. Yazılı mətbuatı çətin duruma salan bu vergi keçən ilin yanvarından bərpa edilib. Bu isə qəzetlərin vəziyyətini xeyli çətinləşdirib. Buna görə də yazılı media orqanlarının rəhbərləri hökumətə müraciət edərək qəzet kağızı idxalından ƏDV-nin götürülməsini xahiş ediblər. Bu məsələni Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov Milli Məclisdə də qaldıraraq, həm qəzet kağızının, həm də qəzet-jurnalların idxalının ƏDV-dən azad olunmasının gərəkdiyini bildirib.



**Ələsgər Süleymanov:** “Çap mediası hökumətdən daha çox ƏDV ilə bağlı addım atılmasını gözləyir”



**Aydın Quliyev:** “Gömrük-idxal rüsumunun ləğvi bizi ümidləndirir”

**“Bakı Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev qəzet kağızının gömrük idxal rüsumundan azad olunmasını müsbət qiymətləndirdiyini, lakin əsas gözləntilərinin ƏDV ilə bağlı olduğunu deyir:** “Bu məsələ çoxdandır biz redaktorları narahat edir. Dövlət başçısına müraciət etmişik, parlamentdə millət vəkilləri qaldırıb bu məsələni. Bizim üçün çox gözlədiyimiz işdir. Çap xərclərimiz həddindən artıq yüksəkdir. Kağızın 1 tonunu 1200 manata alırıq. İdxalı ƏDV-dən azad olunarsa, haradasa 200 manatdan yuxarı azalma demək olacaq. Gömrük-idxal rüsumunun ləğvi bizi ümidləndirir ki, tezliklə ƏDV də qaldırılacaq”.

**“Yeni Müsavat” qəzetinin baş direktoru Ələsgər Süleymanov da qəzet kağızının gömrük-idxal rüsumundan azad olunmasını təqdir edir. Lakin baş direktor çap mediasının hökumətdən daha çox ƏDV ilə bağlı addım atılmasını gözlədiyini bildirir:** “Bu baxımdan, müəyyən qədər məyusluğumuz qalır. Biz gözləyirdik ki, kağız idxalı ƏDV-dən azad olunacaq, əvəzində 0,5 faizlik idxal rüsumunu qaldırdılar. Bu addımın bizim kağız xərclərimizdə ciddi dəyişikliyə gətirməyəcəyi məlum məsələdir. Bu xərcləri azalda biləcək addım kağız idxalının ƏDV-dən azad olunması ola bilər”.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2016-cı il ərzində Azərbaycana 95 faizə qədəri Rusiyadan olmaqla, 2 217,8 ton qəzet kağızı idxal olunub, buna 1086,1 min dollar sərf edilib. Bu isə kağızın hər tonunun 490 dollara başa gəlməsi deməkdir. Bu ilin altı ayında isə Azərbaycana 1331.47 ton qəzet kağızı idxal olunub, buna 700.25 min dollar sərf olunub. Yəni tonu 526 dollara başa gəlib. Qəzetlər isə kağızın 1 tonunu hazırda 700 dollara - təxminən 1200 manata alırlar.

Qəzet kağızı idxalının ƏDV-dən azad olunması dövlət büdcəsinə ildə 180 min dollar az vəsaitin daxil olması deməkdir ki, bu da 20 milyard manatlıq büdcə gəlirlərinin tərkibində çox cüzi bir məbləğdir. Lakin gündən-günə tirajı azalan çap mediası üçün bu rəqəm ciddi bir məbləğ deməkdir.

❑ **DÜNYA**

# Avropa Şurası İlqar Məmmədovla bağlı Azərbaycana qarşı prosedura başladı

## Fazil Mustafa: “Bir şəxslə bağlı bu qədər israr edilməsi açıq şəkildə qərəzin göstəricisidir”

## Azər Qasımlı: “Ölkə üçün mənfi nəticələr meydana çıxa bilər”

**Dekabrın 5-də 47 üzvdən ibarət olan Avropa Şurasının Nazirlər Komitəsi REAL Hərəkatının lideri İlqar Məmmədovun şərtsiz azad edilməsi çağırışına riayət etmədiyinə görə Azərbaycana qarşı prosedur başladıb. Bu barədə “Turan” informasiya agentliyi məlumat yayıb.**

Qeyd edək ki, 2010-cu ildə ilk prosedur zamanı komitə rəsmən məhkəməyə hökumətin bu işlə bağlı məhkəmənin qərarlarına təsirinin araşdırılmasını istəmişdi.

Avropa İnsan Hüquqları Məhkəməsi bu qənaətə gəlib ki, İ. Məmmədova qarşı tədbir onun susdurulması və cəzalandırılması məqsədi daşıyır.

İ. Məmmədovdan başqa digər bütün müttəhimlər konvensiyaya əsasən azadlığa buraxılıb.

2014-cü il dekabrın 14-dən bəri Nazirlər Komitəsi dəfələrlə qərarlar və qətnamələr qəbul edib, İ.Məmmədovun təcili və şərtsiz azadlığa buraxılmasını tələb edib.

Ancaq İ. Məmmədov hələ də həbsdədir. Odur ki, Nazirlər Komitəsi işin Avropa İnsan Hüquqları Məhkəməsinə qaytarılması prosedurunun başlanması haqda qərar qəbul edib.

**Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, BQP başqanı Fazil Mustafa daha çox rəsmi Bakının səsvermə hüququndan məhrum edilə biləcəyini düşünür:** “Əvvəla, deyim ki, bunların bir şəxs üzərindən həyata keçirilməsi nümunəsi ümumiyyətlə yoxdur. Dövlətlərin təməl prinsiplərinin pozulması ilə bağlı addımları varsa, o zaman AŞ PA bu istiqamətdə addımlar ata bilər. Bir şəxslə bağlı bu qədər israr edilməsi açıq şəkildə qərəzin göstəricisidir. Baxın, Rusiyaya qarşı sanksiyalar tətbiq olunanda, bu ölkə səsvermə hüququndan məhrum ediləndə Rusiyanın Krımı işğal etməsi əsas götürülürdü. Əgər prinsip götürülürsə, o zaman Ermənistan Azərbaycan ərazisini 25 ildən çoxdur işğal edib. O zaman bu prinsipi əsas götürsünlər, onda israrçı olsunlar. Biri var İlqar Məmmədovu azad etmək, biri də var ki, 20% ərazini işğaldan qurtarıb, bir milyon insanı azad etmək. Demək istədiyim odur ki, bu, birbaşa Azərbaycanı hədəfə almaq, təzyiq altında saxlamaq istəyidir. Buna da haqlı olaraq Azərbaycanın reaksiyası sərtdir. Bu gün Azərbaycanı, səhəri gün Türkiyəni sıxışdırın, qalacaqsınız özünüzlə baş-başa. Əgər belə



edəcəkdinizsə, o zaman bizi niyə ora çağırırdınız? Mən İlqar Məmmədov və onların tanıdıqları məhbusların azad edilməsinin tərəfdarıyam. Bunların həbsxanada saxlanılıb, xüsusi bir məşhurluq qazanmalarına rəvac verməyin heç bir mənası yoxdur. Bütün hallarda Azərbaycanın mövqeyi normal qarşılanmalıdır. Proseduranın necə olacağına özləri qərar verəcəklər. Amma hər halda, Azərbaycan əleyhinə verilən qərar Avropa Şurasının ziyanına olacaq. Hesab edirəm ki, daha çox Azərbaycanın səsvermə hüququndan məhrum edilməsi yoluna daha çox üstünlük verə bilərlər. Çünki qurumdan çıxarılma tam absurd bir qərar olar. Bu, müəyyən problemlər yarada bilər. Avropa Şurasının qərəzli mövqeyinə qarşı ortaya qoyduğumuz mövqeyimizi haqlı hesab edirəm. Sən axı kim olursan ki, işğalı tanımırsan, Ermənistana bir söz demirsən, mənə bir nəfərə görə təzyiq göstərirsən? Bunun izahı nədir?!”

**REAL Hərəkatının İdarə Heyətinin üzvü Azər Qasımlı isə dedi:** “İlk təhlükə budur ki, Avropa İnsan Haqlarına Məhkəməsinə sorğu göndərilsin. Sorğuya cavabda məhkəmə tərəfindən Azərbaycanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi təsbit olunacaqsa, bunun iki nəticəsi ola bilər. Birincisi, ən pis nəticə odur ki, Azərbaycanı AŞ üzvlüyündən tamamilə çıxara bilərlər. İkinci daha yumşaq ola bilər. Üzvlükdən çıxarmasalar da, səsvermə hüququnu əlindən almış olacaqlar, yəni AŞ PA-da ölkənin üzvlüyünü dondurmuş olacaqlar. Bu, ölkə adına bizə çox ciddi zərbələr vura bilər. Oradakı ermənilərin qərarlara təsiretmə imkanları artacaq, lobbiçilik fəaliyyətlərini genişləndirəcəklər. Bizimkilər də bunun qarşısını ala bilməyəcəklər. İstənilən halda ölkə üçün mənfi nəticələr meydana çıxa bilər. Ölkəmizi AŞ-dən çıxarsalar, Azərbaycan xarici siyasətinə yenidən baxmalı olacaq. Çünki bu baş versə, Azərbaycan Qərb dünyasından qopacaq. Nəticədə Avropa Birliyi, Amerika və digər Avropa ölkələri ilə münasibətlər korlanacaq. Maliyyə, Dağlıq Qarabağ və digər məsələlərdə bunun mənfi təsirləri olacaq. Faktın özü ürəkaçan deyil. Hesab edirəm ki, Azərbaycan iqtidarı o vaxta qədər İlqar Məmmədovu azadlığa buraxacaq, hansısa bir şəkildə. Biz istərdik ki, İlqar tamamilə bəraət qazansın. Çünki Avropa Məhkəməsinin tələbi budur. Ümidimiz odur ki, bu il İlqar azad olunacaq, özü də bəraət alaraq”.

❑ **Cavanşir ABBASLI**

# Yeni nazir kollektivə təqdim olundu-vergi orqanlarında dəyişiklik gözləntisi

## Ekspert: "Yeni nazirin qarşısında həlli vacib olan 2 məsələ var"

**Fazil Məmmədovun vergilər naziri postundan alınması, yerinə Mikayıl Cabbarovun gətirilməsi cəmiyyətin diqqət mərkəzində qalmaqdadır. Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev yeni təyin olunmuş vergilər naziri Mikayıl Cabbarovu nazirliyin kollektivinə təqdim edib.**

Yeni nazirin təyin olunması haqqında prezidentin sərəncamını oxunub, R.Mehdiyev yeni nazirə işlərində uğurlar arzulayıb. Köhnə naziri vəzifəsindən edən səbəblər, yeni nazirin işinin öhdəsindən gəlib-gəlməyəcəyi ciddi müzakirələrə səbəb olub. Qeyd edək ki, F.Məmmədov daha çox son vaxtlar sahibkarlıq subyektlərinə təzyiqlərə görə qınanılır. Vergi orqanlarının büdcə proqnozlarına əməl olunmasını təmin etməklə əsaslandırdığı bu təzyiqlərə görə sahibkarlar arasında narazılıqlar ciddi şəkildə artmışdı. Bununla bağlı iş çevrələrində ciddi müzakirələrin aparılırdı. Bir çox sahibkarlar vergi orqanlarının onlardan əsaslandırılmamış halda yüksək məbləğdə vergi, bir çox hallarda isə qeyri-rəsmi ödənişlər tələb etdiyindən şikayətlənirdilər. Onlar digər qurumların yoxlamalarından azad olduqları, lakin son vaxtlar verginin hamını əvəz etdiyini, biznesə ciddi maneələr yaratdığını deyirdilər. Bu narazılıqlar bir çox hallarda məsələnin məhkəmə müstəvisində həll olunmasına gətirib çıxarırdı. Rəsmi statistika göstərir ki, Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə qaldırılan cinayət işlərinin sayında artım var.

Nazirin dəyişməsi vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərə hansı təsirləri göstərə bilər? Vergilər sistemində bundan sonra nə kimi dəyişikliklər mümkündür? Nəhayət, bu sistemdən məlumatının az olduğu deyilən M.Cabbarovdan hansı gözləntilər var?

**Deputat Vahid Əhmədov deyir ki, F.Məmmədov kifayət qədər təcrübəli kadr, peşəkar iqtisadçıdır:** "Mən onu yüksək səviyyəli mütəxəssis kimi qiymətləndirirəm. Lakin son vaxtlar onun səhhəti ilə bağlı problemləri vardı. Bu problemləri nəzərə alaraq cənab prezident onu işdən kənarlaşdırdı. 2016-cı ilin axırlarında biz onunla Milli Məclisdə çox ciddi islahatlar, Vergi Məcəlləsinə çoxsaylı dəyişikliklər qəbul etdik".

**Parlament üzvünün sözlərinə görə, yeni vergilər nazirinin hansı işləri görəcəyini, necə işləyəcəyini zaman göstərəcək:** "Ümumiyyətlə, Vergilər Nazirliyi daim dəyişikliklər, islahatlar tələb edən bir sahədir. Çünki iqtisadiyyat dayanmır, inkişaf gedir, yeniliklər sürətlə bir-birini əvəz edir. İqtisadiyyatın bur sürətinə uyğunlaşmaq üçün vergi orqanlarında çevik dəyişikliklər olmalıdır. Düzdür, son vaxtlar nazirlikdə həm kadr, həm də struktur baxımından böyük dəyişikliklər edilmişdi. Amma bunu daha da dərinləşdirmək lazımdır. Elə etmək lazımdır ki, əhali, sahibkarlarla vergi orqanları arasında ciddi problem qalmasın, həm də şəffaf olsun. Bu sahədə hansı dəyişikliklərin baş verəcəyi Mikayıl Cabbarovdan asılı olacaq. Hazırda Vergilər Nazirliyində çoxsaylı peşəkar mütəxəssislər var, lakin yenilərinin də gətirilməsi lazım gələcək. Güman ki, bacarıqlı mütəxəssislərdən istifadə ediləcək, o cümlədən cənab prezidentin Vergilər Nazirliyi ilə bağlı tapşırıqları var, onlar da icra olunacaq. Vergi sistemində, Vergi Məcəlləsində müəyyən dəyişikliklər ola bilər. Ümumiyyətlə, vergi sistemini hamı üçün əlçatan etmək lazımdır. Vergilər Nazirliyi strateji əhəmiyyətli bir qurumdur, dövlət büdcəsinin 70-80 faizini təmin edir. Buna görə də oradakı proseslər bütün ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, Mikayıl Cabbarov çox ağır yükün altına girib"...

**İqtisadçı-ekspert Natiq Cəfərli isə hesab edir ki, nazirin kimliyi ilə yanaşı, sistem və işə yanaşma da bu məsələdə mühüm rol oynayır:** "Əgər yeni nazir Mikayıl Cabbarov öz komandası ilə gəlib yeni yanaşma tətbiq edəcəksə, o zaman müəyyən dəyişikliklər gözləmək olar. Hər şey yanaşmadan, komandanın düşüncələrindən asılı olacaq. Bu gün biz bilmirik ki, vergilər kimi strateji bir quruma rəhbər gələn şəxsin bu sahə barədə fikirləri nədir".

**Müsahibimiz deyir ki, yeni nazirin qarşısında həlli vacib olan 2 məsələ var:** "Bunlardan birincisi Vergilər Nazirliyinin imici ilə bağlıdır. Bu günə qədər Vergilər Nazirliyi, ümumiyyətlə, vergi sistemi iş adamlarının qorxulu röyasıydı. Sahibkarların başı üzərində Domokl qılıncına çevrilmişdi. Bu qorxulu röyadan iş adamlarının dostuna çevrilə biləcəksə, iş adamları ilə birgə müzakirələr aparıb, birgə qərarlar qəbul edə biləcəksə, bu imic tamamən dəyişmiş olacaq. Bu isə çox vacib amildir".

**N.Cəfərli ikinci mühüm məsələ kimi Vergi Məcəlləsi və ona tez-tez edilən çoxsaylı dəyişikliklər praktikasını qeyd edir:** "Bu məcəllə həddən artıq böyük sənəddir, qalın bir kitab halındadır. Bəlkə də dünyada ən çox maddələri olan vergi məcəllələrindən biridir. Bu isə doğru yanaşma deyil, məcəllə sadələşməli, kifayət qədər aydın dildə yazılmalıdır, vergi öhdəlikləri ilə bağlı təkrarlanmalar aradan qaldırılmalıdır. Vergi qanunvericiliyinin tez-tez dəyişməsi praktikasına son qoyulmalıdır. Təkcə bu ilin yanvar ayında Vergi Məcəlləsinə 201 dəyişiklik və əlavə qəbul olundu. Bu, iş adamları üçün böyük təhlükə siqnalıdır. Bax, bu 2 məsələni həll edəcəksə, yeni nazirin ciddi dəyişikliklər etdiyini deyə biləcəyik".

❑ Dünya SAKİT




# Cabbarov üçün Ehud Barak örnəyi



Samir SARI

**Bizə indi-indi gəlir çıxır, amma İsraildə 60 ildir ki, bu cürdür. Eyni adamın müxtəlif nazir postlarını tutmasını deyirəm. Məsələn, İsrailin baş naziri olmuş Ariel Şaron buna qədər xarici işlər naziri də olub. Ondan əvvəl isə cənab Şaron enerji və su ehtiyatları naziri vəzifəsini tutub. Bir ara yenidənqurma və inşaat naziri (yeri gəlmişkən, bu, çox qəşəng nazirlikdir, bizdə də olsa yaxşı olar) işləyib. Ondan əvvəl bu adam sənaye, ticarət və əmək naziri vəzifəsində çalışıb. Lap əvvəllər isə o, İsrailin müdafiə naziri də olub, ad qoyub. Bir sözlə, Ariel Şaron 5 müxtəlif nazirliyə rəhbərlik edib, axırda da baş nazir olub.**

Sabiq prezident Şimon Peres də İsrail yaranan gündən tə ölən gününə qədər müxtəlif postlarda - yüksək dövlət vəzifələrində işləyib. İshaq Rabin də onun kimi.

Ölkənin indiki baş naziri Benyamin Netanyahu maliyyə naziri də olub, rabitə naziri də, tikinti naziri də, din işləri naziri də, diaspora naziri də, ədliyyə naziri də, elm, mədəniyyət və idman naziri də, xarici işlər naziri də... Ayrıca iki dəfə baş nazir olub. Sonradan yəqin prezident də olacaq, ya da metropoliten idarəsinin rəisi...

Məkri-zənən fitnə-felinə məruz qalan və zorlama üstündə türməyə düşən 8-ci prezident Moşe Katsav isə cəmi 3 fərqli nazirliyə rəhbərlik edib - əvvəlcə əmək və əhalinin sosial müdafiəsi naziri olub, sonra nəqliyyat naziri işləyib, daha sonra turizm naziri postunda çalışıb. Çıxandan sonra penitensiar xidmətin rəisi ola bilər.

Ehud Barakın rəhbərlik etdiyi nazirliklərin siyahısı belədir (üstdən aşağı): Müdafiə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Təhsil Nazirliyi, baş nazir, Müdafiə Nazirliyi (birinci dəfə), Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi.

Göründüyü kimi, Ehud müəllim öz nazirlik karyerasına DİN rəhbəri olaraq başlayıb, XİN rəhbəri də olub, arada kənd təsərrüfatı və turizm işinə də baxıb, baş nazir də olub, ayrıca iki dəfə müdafiə naziri postunda oturub.

Onun adaşı, keçmiş baş nazir Olmert isə əvvəlcə Yerusəlimin meri olub, sonra maliyyə, daha sonra isə ticarət və sənaye naziri postlarını tutub.

Bu siyahını uzatmaq və İsraildə nazir postu tutan yüzlərlə adamın adını salmaq olar. Çünki hamısı ayrı-ayrı vaxtlarda ən azı 3 müxtəlif nazirliklərə rəhbərlik ediblər, partiyaları hər dəfə seçkidə qalib gələndə onlar öz köhnə iş yerlərinə qayıtmayıblar, başqa nazirliklərə rəhbərlik etməyə gediblər.

Prinsipcə, bu üsulun yanlış olduğu, özünü doğrultmadığı deyilə bilməz. İsrailin gücü, qüdrəti, tərəqqisi göz önündədi. Bizim Qarabağ boyda bir yerdir, amma nüvə bombası da var.

Dediyim odur ki, keçmiş təhsil naziri Mikayıl Cabbarovun yeni vəzifəyə - vergilər naziri postuna təyin olunması gərək bizə çöçün gəlməsin. Burda yalnız İsraildən misal gətirdim, amma yüksək inkişafı olan digər ölkələrdə də, oxumuş adamların sözü olmasın, analoji presedentlər (öz dilimizdə desək, həbelə şeylər) var.

Sadəcə, camaat bu xüsusda niyə pessimistdir, deyim. Bizə elə gəlir ki, köhnə vəzifəsini yarıtmayan adam yeni vəzifəsini də becərə bilməz. Bu da yanlış düşüncədir. Adamın təcrübəsi artdıqca faydalılığı da artır. Ayrıca Mikayıl müəllim sədaqətli adamdır. Biz onun adını ilk dəfə Barselonaya uçan təyyarədə düşdüyü qalmaqal zamanı eşitmişdik. Fatih Çəkirgə adlı bir yazar yazmışdı ki, guya Cabbarov stüardessaya deyib ki, sən heç bilirsənmi mən kiməm. Amma sonra məlum oldu ki, bu sözü, kimsə başqa adam deyib, sadəcə, cənab Cabbarov da təyyarədəymiş, məsələyə müdaxilə edib, ortalığı sakitləşdirib. Vəssalam.

Ona görə də gəlin pessimist olmayaq, bəzi iqtidarpərəstlərin sözü olmasın, yeni nazirə vaxt verək (guya ki, vaxt verməsək işləyə bilməyəcək).

Əgər artıq bizdə də İsraildəki nazirdəyişmə təcrübəsi tətbiq ediləcəksə, onda başqa gözlənilməz, sürpriz variantlar da mümkündür. Təki Səfər Əbiyev Ehud Barak kimi təzədən gəlib müdafiə naziri olmasın. Elə olsa, şok olarıq və şokdan çıxa bilmərik, hətta komaya girib, qapısını-pəncərəsini bağlayarıq.

YENİ MÜSAVAT
N 256 (6870) 7 dekabr 2017



# "Separatizm" sözü erməni təcavüzünü kiçiltmirmi?..

Hüseynbala SƏLİMOV

**Kataloniya separatizminə Avropa və eləcə də dünya ölkələrinin əksəriyyətinin soyuq münasibəti, İraq kürdlərinin referendumuna region dövlətləri olan Türkiyənin və İranın operativ təpkisi, həmçinin ABŞ və Rusiya kimi böyük dövlətlərin də onlara siyasi dəstək verməsi tez vaxtda hər iki "etiraz ocağı"nın söndürülməsinə gətirdi.**

Məlum oldu ki, "Böyük dövlətlər və ya beynəlxalq strukturlar separatizmi dəstəkləyir!" kimi tələsik nəticələr heç də həmişə özündə reallığı əks etdirmir. Uzağı, "Separatizm bəzən dəstək tapır!" demək olar. Bu, da daha çox dünyanın böyük gücləri arasındakı qəliz geosiyasi münasibətlərin nəticəsi kimi təzahür edir.

Əslində müasir Dünyada etnik separartizmə "yox" deyən amillər daha çoxdur, nəinki dəstək verən.

Birincisi, əksər ölkələr polietnik dövlətlərdir. Hər birinin də ərazisində müxtəlif xalqlar və etnik qruplar yaşayır və onların hamısı coğrafi, siyasi və iqtisadi bütünlüyünü saxlamaqda maraqlıdır.

Elə beynəlxalq hüquq tərəzisinin özü də daha çox dövlətlərin ərazi bütövlüyünə dəstək ifadə edən tərəfə əyilməyə meyllidir - bu prinsiplər BMT nizamnaməsində, Helsinki Yekun Aktında, hətta Paris Xartiyasında ifadəsini tapıbdır.

"Müqəddəratı təyinetmə" məsələsini də ərazi bütövlüyü prinsipi hüdudlarında çözmək praktikası daha geniş yayılıb, nəinki bunun əksi...

Etnik separatizm bilavasitə beynəlxalq təhlükəsizliyə də təhdiddir. Dövlətlərin sayı 200-ü aşmadığı halda, böyük və kiçik xalqların sayı minlərlədir. Onların heç olmasa, yüzü "müqəddərat təyinetmək" yolunu tutarsa, təsəvvür edirsinizmi, hansı siyasi-hərbi, sosial kataklizmlər baş verər?

Üçüncüsü, etnik separatizm demokratiya və insan haqlarının müasir anlamına, hətta qloballaşmanın da fəlsəfəsinə zidd fenomendir.

Etnik-mədəni haqların da çözümü indi başqa müstəvidə,- dövlət və vətəndaş münasibətlərini yüksək səviyyəyə qaldırmaq, insan haqlarının aliliyini təmin etmək və vətəndaş cəmiyyətini inkişaf etdirmək, açıq və demokratik cəmiyyətlər formalaşdırmaq, dövlətlər arasındakı sərhədləri şəffaflaşdırmaq, ölkələrin və xalqların əlaqələrini genişləndirmək istiqamətində axtarılır.

Ona görə də etnik separatizmə hələ də "demokratiyanın qıcqırması", "demokratiyanın sindromu" kimi yanaşma meylləri qalsa da, birmənalı deyərdik ki, o, daha çox müxtəlif geosiyasi amillər ucbatından dəstək tapa bilir və "kiçik xalqların halına acımaq arzuları"nın da arxasında ən çox bu motivlər dayanır.

Bunu keçmiş sovet məkanındakı münaqişələrin timsalında görürük: Dağlıq Qarabağ da, Abxaziya da, Cənubi Osetiya da, Dnestryanı bölgə də, Krım da müstəqilliyə can atan Azərbaycana, Gürcüstana, Ukraynaya və Moldovaya qarşı Rusiyanın tətbiq etdiyi cəzadır!

On illərdir, onların hamısına eyni sözlər deyilir: ya müstəqilliyinizdən keçin, ya da torpaqlarınızdan!..

Gürcüstan, Ukrayna və Moldova bir qədər fərqli istiqamət götürdü. Onlar qərara gəldilər ki, on illərlə Kremlin sifətlər görmüş diplomatları ilə çənə döyməyin mənası yoxdur, yaxşısı digər əlaqələri genişləndirmək və Dünyaya əsl həqiqəti çatdırmaqdır. O həqiqət də budur ki, qoy, bilsinlər ki, bütün separatizm ocaqları əslində Rusiyanın gənc dövlətlərə qarşı təcavüzüdür...

Biz bir az başqa yol tutmuşuq. Rusiya ilə mülayim davranır və onu özümüzə təhlükə kimi təqdim etmirik. Amma bəlkə elə buna görə Qərb dövlətləri Ukrayna, Gürcüstan və Moldovanın ərazi bütövlüyünə daha birmənalı yanaşır, nəinki Azərbaycanın?..

Amma bütün hallarda, diplomatiyanı siyasi təhlilçilər müəyyənləşdirmirlər, bunu siyasətçilər və diplomatlar edirlər. İndi biz Azərbaycanın problemini daha çox erməni separatizmi kimi təqdim edir və bunun bilavasitə Ermənistanın iştirakı və rəhbərliyi ilə həyata keçirildiyini önə çəkirik.

Əslində biz Ermənistanın təcavüzü ilə üzləşmişik və təcavüzün coğrafiyası Naxçıvandan, Qərb bölgələrimizdən keçərək cəmi Qarabağı, bəli, aranlı-dağlı Qarabağı əhatə edir! Ona görə də istər-istəməz düşünürsən ki, problemi yalnız separatizm kimi təqdim etməklə onun mahiyyətini və coğrafiyasını bir az təhrif etmirik ki?..

Amma bir məsələ də var ki, Dağlıq Qarabağ ermənilərini tərəf kimi tanımırıq və yalnız Ermənistanın özünü bir təcavüz subyekti kimi təqdim edirik.

Bu, məsələnin əsl mahiyyətinə də adekvat yanaşmadır - yüz min nəfərlik Qarabağ ermənisi nədir ki, on illərlə on milyon əhalisi olan Azərbaycanın qarşısında duruş gətirsin, üstəlik, də onun ərazisinin iyirmi faizini işğal etsin!..

Katalon və kürd məsələləri çox operativ həll olundu, yerli hökumətlər də məsələnin "beynəlmiləlləşmə"sinə imkan vermədilər!

Bu şansı itirmişik. Sovet məkanındakı münaqişələr lap əvvəldən "beynəlmiləl"ləşdi, onların guya ki, "çözümü" üçün müxtəlif beynəlxalq formatlar quruldu. Olsun. İndi bunun özünü ermənilərin əleyhinə çevirməliyik, ən azı ona görə ki, son vaxtlar artıq belə zəmin yaranıbdır.

# Sürix protokolları Azərbaycanı təhdid edirmi?

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistanı izolyasiyanı gücləndirməklə hədələməsi Ankaranın Azərbaycana birmənalı dəstəyinin növbəti nümayişi oldu.**

## Rəcəb Tayyib Ərdoğan Türkiyə-Ermənistan sərhədi ilə bağlı nöqtəni qoydu, bəs Sürix protokolları yenidən gündəmə gələ bilərmi? **Zahid Oruc:** "Sürix protokollarının birdəfəlik tarixə qovuşduğunu tam əminliklə söyləmək olar"

Türkiyə prezidenti hakim partiyanın toplantısında Ermənistanın bundan sonra da regional iqtisadi layihələrdən kənarda qoyulacağını açıq şəkildə bəyan edib. "Nəticədə Ermənistan bölgədəki nəqliyyat, ticarət və energetik layihələrdən kənarda qalıb. Üstəlik, o, izolyasiya şəraitində olmaqda davam edir. Bunun qarşılığında Gürcüstan bir yandan Türkiyə və Qərb arasında, digər yandan isə Qafqaz regionu ilə Orta Asiya arasında körpüyə çevrilib. Yəni kim ki bizimlə dostluq edir, o qazanır, kim ki kin saxlayır - itirir" - cənab Ərdoğan bildirib. Bu, xüsusilə də İrəvanın Bakı-Tiflis-Qars dəmir yoluna qoşulmaq istəklərinə cavab da sayıla bilər. Gürcülərlə dil tapıb Avropa və Asiyanı birləşdirən layihəyə qoşulmaq istəyən işğalçı ölkənin sonuncu ümidlərini də Türkiyə prezidenti açıq mövqeyi ilə kəsmiş oldu.




Qardaş Türkiyənin və onun rəhbərliyinin Qarabağ probleminin ədalətli həlli istiqamətində gərəkəni etməyə çalışması sözsüz ki, hər birimizi məmnun edir. Xüsusilə də R.T.Ərdoğan və V.Putin arasındakı son görüşlərdə Qarabağ məsələsindən danışılması, ardınca həmsədrlərin Ankaraya gedərək Türkiyə rəhbərliyi ilə bu məsələni müzakirə etməsi erməniləri səksəkədə saxlayan amillərdir. İşğalçı ölkə Türkiyənin prosesdə aktiv rol almasını özü üçün intihara bərabər hadisə sayır. Ancaq narahatlıq doğuran bəzi məqamlar da var. Söhbət 10 oktyabr 2009-cu ildə İsveçrənin vasitəçiliyi ilə Sürix şəhərində Ermənistanın və Türkiyənin xarici işlər nazirləri Edvard Nalbəndyan və Əhməd Davudoğlu tərəfindən imzalanan protokollardan gedir. Qeyd edək ki, Azərbaycanın xəbəri olmadan imzalanan həmin protokollar Türkiyə-Ermənistan sərhədlərinin açılmasını özündə ehtiva edirdi. Lakin sonradan Azərbaycan xalqı və hakimiyyətinin olduqca kəskin etirazları, həmçinin qardaş ölkədəki narazılıqlar Ankaranı işğalçı ölkə ilə anlaşmaya getməkdən vaz keçməyə vadar etdi. Həmin sənədlər ölkə parlamentlərində ratifikasiya olunmasa da, "Domokl qılıncı" kimi başımızın üstündən asılıb. Bu mənada hesab olunur ki, 2009-cu ildə Türkiyə hakimiyyətini hansısa vədlər, yaxud təzyiqlər yolu ilə Azərbaycanı incidən sənədləri imzalamağa vadar edən güclər nə vaxtsa yenidən ermənilərin maraqlarına hesablanmış bu prosesi başa çatdırmaq üçün hansısa yollara əl ata bilərlər. Xüsusilə də Avropa Birliyi ilə əməkdaşlıq sazişini imzaladıqdan sonra şübhə yoxdur ki, İrəvanın izolyasiyadan çıxarılması üçün yeni cəhdlər olacaq. Qərb bu yolla Ermənistanı həm də Rusiyanın təsirindən xilas edəcəyini zənn edir. Kəlbəcərin işğalına cavab olaraq Türkiyənin işğalçı ölkənin üzünə qapatdığı sərhədlərin açılması isə Ermənistan üçün xilas yolu ola bilər.

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, "Sürix protokolları" xanım Klintonun strategiyası idi və sabiq dövlət katibinin məqsədi bir planla Avrasiya məkanında liderlik mövqelərini möhkəmlədəcəyini zənn edirdi:** "Obama administrasiyasının dəqiq hesablanmış Cənubi Qafqaz siyasəti olmadığından xaotik şəkildə irəli sürülən müxtəlif təşəbbüslərin aqibəti dumanlıydı və əslində Türkiyəni Ermənistanla barışdırmaq siqnallarını verərkən Vaşinqtonun necə təhlükəli ssenarilər hazırladığını çoxları başa düşmürdü. 2009-cu ildə Ağ Evin yönləndiriciləri inqilabi dəyişiklikləri ərəb yarımadasında deyil, Asiyadan başlamağı düşünürdü və Rusiya ilə soyuqlaşan münasibətlər onları təxirəsalınmaz tədbirlərə vadar edirdi. Xanım Klintonun komandası Türkiyənin Qafqazdakı fəallığına qarşı olsa da, Ermənistanı Konqres tərəfindən maliyyələşməsinə geniş dəstək verdi, AKP hökuməti içərisində yerləşdirilmiş böyük casus şəbəkəsi hesabına İrəvanla diplomatik münasibətlərin başlanmasına dair açıq-gizli fəaliyyətə keçdi. Əgər Birləşmiş Ştatların yardımlar siyahısına baxsaq, görərik ki, Obamanın ikinci hakimiyyət dövründə keçmiş postsovet ölkələri sırasında hansı dövlətə daha çox üstünlük verilib". **Deputat qeyd etdi ki, hər halda, Ermənistanı Rusiyanın əlindən almaq çox böyük iqtisadi-siyasi resurslar tələb edirdi:** "Yəni söhbət bahalı layihədən gedirdi. Ona görə də Türkiyə prezidenti Abdulla Gülü "futbol" diplomatiyasına vadar etdilər, Sürixdə Rusiyan xarici işlər nazirinin də qoşulduğu razılaşma sənədinin təntənəli imzalanmasını keçirdilər və planın gerçəklənməsinə mane olan qüvvələrə qarşı bütün mexanizmlərlə təzyiq göstərməyə çalışdılar. Əslində Birləşmiş Ştatlar Ermənistanla sərhədləri açaraq iqtisadi əlaqələri bərpa etməklə daha da uzağa getməyin, Azərbaycan və Orta Asiyanı da qazanmağın qayğısını çəkirdi. Ona görə də prezident İlham Əliyevin sərt iradəsi ilə üz-üzə qalan məlum strategiya ABŞ-ın təkcə iki dövlətin yaxınlaşmasını əngəlləmirdi, həmçinin Yaxın Şərq, Qafqaz və Orta Asiya hövzəsindəki nüfuzunu sınağa çəkirdi. Lakin plan rəsmi Bakının sərt dirənişi nəticəsində Qarabağın işğalından vaz keçərək, bölgədə post konflikt geopolitikası qurmaq istəyənlərin arzusunun üzərindən xətt çəkdi".

**Zahid Oruc bildirdi ki, gerçəkdən də Azərbaycan rəhbərinə qarşı qəzəb doğuran və ona qarşı çirkli beynəlxalq kampaniyaya rəvac verən çox məsuliyyətli və riskli oyunlardan söhbət gedirdi:** "İndi BMT tribunasından Türkiyəyə şərt qoyan Ermənistan rəhbəri faktiki olaraq, Azərbaycanla qardaş ölkənin münasibətlərini yenidən sınağa çəkəcəyinə inanır. Halbuki Trampın hər hansı regional inteqrasiya planından danışmaq mümkün deyil. Digər tərəfdən, Avropa Birliyi rəsmi Ankaraya Ermənistana görə hər hansı yardım, siyasi-iqtisadi stimul və ya təzyiq edəsi deyil. Belə olan şəraitdə gələn ilin aprelində İrəvanın həmin sənədlərdən imzasını geri çəkməsi ətrafında böyük kampaniyaya şahidlik edəcəyik. Halbuki həqiqətən bölgədə işğal reallığının ortadan qalxması ilk növbədə, İrəvanı Moskvanın güclü iqtisadi və hərbi asılılığından çıxarar, onun suveren hüquqlar qazandırar və yüksək inkişaf perspektivləri vəd edərdi. Hər halda, Türkiyə sərhədləri birtərəfli qaydada açardısa, Azərbaycanla sərhədi bağlayar, nəticədə İrəvanın türklər əleyhinə tarixi iddialarını və Qarabağdakı işğal siyasətini daha da möhkəmləndirmiş olardı. Ona görə də hazırda "Şərq Tərəfdaşlığı" sammitinin yekunları içərisində tarixi uğur qazanaraq, nəhayət, Rusiyadan kənar alternativ xarici siyasət vektorları qurduğunu bəyan edən Ermənistan prezident Ərdoğanın dediyi kimi, Ankaradan heç bir müsbət siqnalları almır və nəticədə Sürix protokollarının birdəfəlik tarixə qovuşduğunu tam əminliklə söyləmək olar. Çox təəssüflər olsun ki, bölgəyə sülh və əməkdaşlıq vəd edən onlarla inteqrasiya planı bax beləcə iflasa uğrayır. Məgər "Qərbi Ermənistana qayıtmaq" kimi absurdla yaşayaraq, "soyqırım"ı dövlət quruculuğu ideologiyasına çevirərək və Qarabağda ikinci dövlət yaratdığını elan edərək, erməni liderləri hələ, üstəlik, Ankaraya, İstanbula da rahat gedib-gəlmək istəyirlər?"

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 256 (6870) 7 dekabr 2017

# "Azərbaycanda strukturlaşmış güclü hakimiyyət var"

## Mehman Əliyev: "Seçki prosesində Qərbin və Rusiyanın dəstəyini qazanmaq çox vacib olacaq"

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyevin "Yeni Müsavat"ın ötən sayında geniş müsahibəsi gedib. Həmin müsahibədə Mehman bəy azadlığa çıxdıqdan sonra "Turan"ın fəaliyyətini necə bərpa etməsindən, ölkə daxilində gündəmdə olan mövzularla bağlı mühüm açıqlamalar verib. Onunla müsahibənin ikinci və sonuncu hissəsini təqdim edirik:**



*(əvvəli ötən sayımızda)*

***- İstər Amerika, istərsə də Rusiya olsun, bu seçkilərdə hakimiyyət qarşısına öz mənafelərinə uyğun sürpriz bir isim çıxara bilərlər?***

- Buna inanmıram. Hansı möcüzə ola bilər ki, birdən-birə tanınmayan bir şəxs çıxsın və desin ki, bu xalqın qəhrəmanıyam. Azərbaycanda strukturlaşmış güclü bir hakimiyyət var. Digər tərəfdə isə tanınmış bir müxalifət mövcuddur. Böhran o qədər xaos həddinə çatmayıb ki, kimsə ortaya çıxsın. Məsələn, 1988-ci ildə mitinqlər başlayanda fəhlə olan Nemət Pənahlı meydana çıxmışdı. Bax xaos bu idi. O zaman nə siyasi partiyalar, nə də siyasi xadimlər var idi. Yalnız Kommunist Partiyası mövcud idi. Ona görə birdən-birə Nemət Pənahlı, Etibar Məmmədov kimi simalar ortaya çıxdılar. Belə vəziyyətlərdə bu cür hallar normaldır. İndi amma hər şey idarə olunur, hesablanır, belə bir şəraitdə sürpriz isimlərin meydana çıxması mümkünsüzdür.

***- Ənənəvi müxalifət var, bir də siyasi arenaya çıxan yeni qüvvələr var. Məsələn, həbsdəki İlqar Məmmədov, Tural Abbaslı, Əli Əliyev və bu tipli 5-6 siyasi lider. Bu şəxslərin ənənəvi müxalifətdən fərqli olaraq, 2018-ci ildəki şanslarını necə görürsünüz?***

- Biz yeni qüvvələr desək də, əslində belə deyil. Məgər İlqar Məmmədov AMİP-in üzvü deyildi? Yaxud başqaları siyasətdə olmayıblar? Gənclər hərəkatları olub, onların rəhbərləri indi yeni qüvvələr sayılırlar. Əslində bu şəxslər sınaqdan keçmiş adamlardır. Onların arxasında bu gün güclü bir sistem, təşkilat da yoxdur. Halbuki bu çox vacib amildir. REAL hərəkatı da yeni deyil. Səhəri gün partiyaya çevrilsələr belə, yeni qüvvə sayılmırlar ki. 20-25 il tarixlərinin olmaması heç nə demək deyil. Digər tərəfdən, seçkilərə 10 ay qalır ki, bu da uzun zaman deyil. Bu müddətdə nə baş verə bilər ki, yeni qüvvə meydana çıxsın. Nə olsa ortada olan qüvvələr birləşib, birlik formasında edə bilərlər. Bunun üçün də zamanın sifarişi olmalıdır ki, bunu da hələ ki görmürəm. Proseslər çevik şəkildə dəyişir, bu baxımdan hər şey ola bilər. Bu da hakimiyyətin edəcəyi səhv nəticəsində baş verə bilər.

***- Hakimiyyət daxilindən yeni namizədin ola biləcəyi barədə də iddialar var. Bu ehtimal nə qədər yüksək görünür?***

- Daha çox fikirləşirəm ki, Mehriban Əliyeva namizəd ola bilər. Düzdür, konstitusiya bir şəxsin bir neçə dəfə namizəd olmasına icazə verir. Amma dördüncü dəfə namizəd olmaq hakimiyyətə müəyyən çətinliklər yarada bilər. Belarusda belə hal ola bilir, çünki qapalı dövlətdir. Bizi demokratiyaya doğru getməyə vadar edirlər. Vitse-prezident təyinatından sonra bu cür iddiaların meydana çıxması gözlənilən idi və hakimiyyət də bunu bilirdi. Bu baxımdan seçkilərə doğru proseslərin daha da intensivləşəcəyini düşünürəm. Bu iddialar gələn il daha aktiv olacaq. Düşünürəm ki, keçid dövrü üçün optimal variant onun namizədliyidir. Referendumun da razılaşdırıldığı hər kəsə məlumdur. Çünki heç bir Qərb ölkəsi buna etiraz etməmişdi. Hətta o zaman Azərbaycana qarşı təzyiqlər birdən-birə səngimişdi. Bu baxımdan daha çox fikirləşirəm ki, Mehriban Əliyeva namizəd ola bilər. Bəziləri də əksini düşünür. İstənilən halda tamam başqa bir namizəd hakimiyyət daxilində görmürəm. Ya indiki prezidentin özü, ya da vitse-prezident namizəd olacaq.



İstənilən halda, seçki prosesində Qərbin və Rusiyanın dəstəyini qazanmaq çox vacib olacaq.

***- Referendumdan sonra həbsinizə qədər daha çox islahatlardan danışırdınız. Müəyyən dəyişikliklər oldu, son olaraq da Qubanın icra başçısı vəzifəsini itirdi. Bunları islahatların davamı saymaq olarmı?***

- İslahatlarla bağlı demişdim ki, hakimiyyət buna getməyə məcburdur və başqa bir yolu da yoxdur. Müəyyən islahatlar aparılır. Amma köklü, gözə çarpan islahatları bir görmürük. İqtisadiyyatın inkişafının qarşısını alan prinsipial məsələlər var ki, burada heç bir dəyişiklik yoxdur. Əslində hakimiyyətin islahatları yubandırmağa çalışdığı görünür. Buna səbəb də neftin qiymətinin bir az qalxmasıdır. Sanki hakimiyyət bir qədər rahatlanmış durumda görünür. Vəziyyət daha da pisləşməlidir ki, hakimiyyət desin ki, addımlar atırıq. Neftdə artım var, cəmiyyət də susur, nəticədə hökumət atacağı addımları yubadır. Açığı, hesab edirəm ki, hakimiyyət seçkilərə qədər hər hansı bir ciddi dəyişikliklərin aparılmasında maraqlı deyil. Çünki fikirləşirlər ki, bu hər hansı bir fəsadlar verə bilər. İslahatların yubanmasını neftin qiymətindəki artımla əlaqələndirirəm. Bu dəfə dövlət büdcəsinə beş milyard artırdılar, bunu da neftin hesabına etdilər. Əslində vəziyyət getdikcə pisləşir.

## "Yaxşı münasibətlər əbədi deyil, əsas olan əbədi maraqlardır"

***- "MTN inqilabı"ndan sonra həyata keçirilən məhkəmələr ötən həftə başa çatdı. Bu məhkəmələri necə dəyərləndirirsiz?***

- O vaxt yazdığım yazıda MTN hadisələrinə başqa cür yanaşdığımı qeyd etmişdim. Əvvəl dövlət çevrilişinin hazırlandığı deyilirdi. Sonradan vəzifədən sui-istifadə edildiyi bildirildi. 500 nəfərə yaxın şəxs vəzifəsindən azad olundu, çoxsaylı həbslər oldu. MTN elə bir strukturdur ki, orada nəsə baş versin, kənara heç bir informasiyanın sızdırılmaması mümkün deyil. Çünki orada hamı bir-birinə nəzarət edir. Hələ də o proseslərin başqa bir proses olduğu düşüncəsindəyəm. Hesab edirəm ki, xarici qüvvələrin təsiri altında bu proseslər baş verdi. MTN-in beynəlxalq bəzi məsələlərdə iştirakı üzə çıxmışdı. Məsələn, MTN hadisələrindən bir müddət əvvəl Amerikada İŞİD-in maliyyələşdirilməsi məsələsinə 28 dövlətin iştirakı ilə baxılmışdı, hesabat var idi ki, bir sıra MDB ölkələri vəsait ayırırlar ki, onlara toxunmasınlar, stabilliyi pozmasınlar. Bunları başa düşürəm, ölkəni qorumaq üçün edilir. Eldar Mahmudovun işdən çıxarılmasının hansı məlum ərəfəyə təsadüf etdiyini də unutmayaq. Rabitə Nazirliyində gedən proseslər də təsadüfi deyil. Bunlar bir-birinə bağlı məsələlərdir. Burada elə məsələlər var idi ki, böyük dövlətlərin maraqlarına toxunmuşdu. Açığı, MTN hadisələrində xəyanət görmürəm, ola bilər ki, kimlərsə bunun olduğunu düşünür, bəlkə də var. Mahmudovun guya əlində olan bəzi kompromatlara görə azadlıqda qaldığı deyilir, amma bunun belə olduğunu düşünmürəm.

***- Hazırda Amerikada iş adamı Rza Zərrabın gedən məhkəməsi dünya gündəmində ciddi maraq doğurub. Bu, Qərbin Türkiyəyə "Rza Zərrab oyunu" kimi qəbul edilir...***

- Vaxtaşırı belə hallar bir çox dövlətlərə qarşı olur. Maliyyə axınları o qədər ciddi izlənilir ki, sonunda bu cür vəziyyətlərdə istifadə olunur. Belə vəziyyətləri hər an gözləmək olar. Düşünürlər ki, bizim filankəslərlə yaxşı münasibətlərimiz var, bizə qarşı belə etməzlər. Amma unutmaq olmaz ki, yaxşı münasibətlər əbədi deyil. Əsas olan əbədi maraqlardır. Maraqlar da dəyişə bilər. Böyük dövlətlərin maraqları dost və digər münasibətlərdən üstündür. Dövlətin maraqları ortaya çıxanda hər dövlət öncəliklə özünün maraqlarını təmin etməyə çalışır. Açığı, bilmirəm ki, bu məsələlərdə indi hansı şərtlər qoyulub. Türkiyədə də eyni vəziyyətdir və bunun təzyiq olduğunu düşünürəm.

***- NATO-nun təlimlərində Türkiyəyə qarşı məlum təxribatından sonra Rza Zərrab məsələsinin ortaya çıxması təsadüfdürmü?***

- Bu təsadüfi də ola bilər, sistemli şəkildə də. Ola bilər ki, qıcıqlandırmaq üçün belə edirlər ki, sən nə cavab verəcəksən. Necə ki, Məhəmməd Peyğəmbərin karikaturaları yayılır, müsəlman dünyası ayağa qalxır, aksiyalar keçirilir. Amma ikinci dəfə bu hal baş verəndə artıq adi qarşılanır. Bu baxımdan bu məsələlərdə Türkiyəni qıcıqlandırmaq niyyəti var. Amma bunun əsas məsələ olduğunu düşünmürəm. Burada tərəflərin gücü və səviyyəsini göstərmək məqsədi daha real görünür. Mühüm məsələlərlə bağlı qapalı formada danışıqların getdiyini zənn edirəm. Qarşı tərəf müəyyən məsələlərin Türkiyə tərəfindın həyata keçirilməsinə çalışır. Bu məsələlərin nədən ibarət olduğu təbii ki, tam məlum deyil.

***- Son sualım, Dağlıq Qarabağla bağlı son aylarda bir sıra ciddi hadisələr baş verdi. Rusiya XİN-in rəhbəri Sergey Lavrov Bakıya gəldi, məlum etiraz doğuran açıqlama verdi, buradan da İrəvana getdi. Eyni zamanda noyabrın 24-də Brüssel sammiti oldu...***

- Dağlıq Qarabağla bağlı müəyyən aktivlik var. Bu aktivliyin qısamüddətli olacağını düşünürəm. Çünki gələn il əvvəl Ermənistanda, sonra da biz də seçki prosesləri başlayır. Qərb və Rusiya tərəfindən Azərbaycan və Ermənistana daha çox tələblər qoyulur ki, bu seçkilərdə Dağlıq Qarabağ faktorundan istifadə olunmasın, çalışırlar ki, qeyri-stabillik yaranmasın. Atəşkəsin qalmasında, status-kvonun qorunmasında maraqlıdırlar. Əslində danışıqlar bunun ətrafında gedir. Anjey Kasprşikin Müşahidə Şurasının genişləndirilməsi barədə dedikləri təsadüf deyil. Əslində nəzarəti gücləndirirlər. Qarantiyanın olmasını istəyirlər ki, atəşkəsin pozulmayacağına əmin olsunlar. Tərəflər prinsipcə bu vəziyyətdə maraqlıdırlar. Brüssel sammitindən güclü çıxdığımızı deyə bilmərəm. Çünki saziş imzalamadıq. İndiyə qədər Rusiyanın təzyiq etdiyini deyirdik, Gürcüstan nümunəsini gətirirdik. Amma Ermənistan sazişi imzaladı. Bizim əl-qolumuz Ermənistandan fərqli olaraq açıqdır. Düşünürəm ki, Avropa qurumları ilə danışıqların hər birində demokratiya, insan haqları və bu kimi məsələlər böyük əhəmiyyət kəsb edir. Qarşıdan gələn seçkilərdə də bunlar hakimiyyət üçün olduqca vacib olacaq. Hakimiyyətin tezliklə sazişi imzalayacağını düşünürəm. Brüssel sammitinin yekunları bunu deyir. Seçkilərdə Avropanın dəstəyini almaq üçün o sazişə getmək iqtidar üçün çox vacib olacaq. Cəmiyyət olaraq, bu bizim üçün də çox faydalıdır.

❑ **Cavanşir ABBASLI**



# Hazırın naziri

Zamin HACI
zaminhaci@gmail.com

**Güclü dövlətçiliyin, regional liderliyin, planetar hegemonluğun, canım sənə desin, qalaktikal farmazonluğun əlamətlərindən biri də kadrların təyinatı zamanı üzə çıxır. Başqa dövlətlərdə kimisə vəzifəyə qoymaqla Azərbaycanda qoymağın böyük fərqləri vardır.**

Örnək üçün, götürək elə xaraba qalmış Almaniyanı. Orada təzəlikcə kadr böhranı əlamətləri də görünməkdədir, çünki deputatxana seçkiləri olub, dövlətin şefi Angela Merkelin partiyası hökuməti təkcanına formalaşdırmaq üçün az səs alıbdır. Məcburdurlar koalisiya qayırıb başqa partiyaları da hakimiyyətə şərik qoşsunlar. Lakin başqa partiyaların da biri naz eləyir, başqası Merkel xanımın partiyası ilə yas yerinə də getməyəcəyini deyib, daş atıb, başını tutur. Sözgəlişi, bizim Azərbaycanda partiyalar arasında münasibətlərdə belənçik ideoloji, siyasi, nə bilim, ictimai fərqlər olmur. Bir də görürsən islamçılarla ateist kommunistlər koalisiya qayırıblar. Liberallar millətçilərə qoşulub "Məhsul" stadionunda "İş, çörək, Qarabağ" hayqırırlar. Yaşıllar qəhvəyilərlə əlbirdir, qaralar ağlarla və sairə.

Uzun sözün qısası, Almaniyada və başqa parlamentar-demokratik sistemli dağım-duğum rejimlərdə bir naziri işə qoymaq üçün gərək onun partiyası olsun. Gərək millət bu nazirə etimad göstərsin, nə bilim, səs versin. Bunlar isə uzun prosedurlardır, sən naziri təyin edənə qədər baxarsan Frankfurt dilənçiylə dolub, Hamburqda matroslar adam doğrayır, Berlində nəşənin qutusu bir avroya düşübdür, ruslar isə Potsdamın altında səngər qazırlar. Ən doğrusu bizimki kimi güclü dövlətçilikdir. Heç millətin xəbəri də olmur nazir haçan qoyuldu, haçan çıxarıldı, niyə çıxarıldı, yaxud niyə indiyə qədər çıxarılmırdı, çıxardıb hara qoyacaqlar və sairə.

Bizdə nazirlərin seçilməsi və vurulması adətən əsrarəngiz şəkildə olur, millət də bu gözlənilməzlikdən həzz yaşayır. Misal üçün, bir də görürsən nazir idarədə kiminsə yeznəsini işdən çıxartdı, bundan az keçməmiş özü kreslodan uçub isti ölkələrə səfir getdi. Başqa nə cür ola bilər ki? Kadrların təyinatında bu əsrar, gizlilik bizim müharibə şəraitində yaşamağımızla sıxı surətdə bağlıdır. Çünki sabah kimin nazir qoyulacağı təxmin edilsə, ermənilər ona qarşı təxribata başlayar. Evə getdiyi yerdə başına pomidor atarlar. Maşınının təkərini deşərlər. Uşağının xaricdəki villasının hasarına tüpürərlər. Qulluqçusunun sürücüsünün masajistinin stilistinin dizaynerinə müxtəlif xarakterli terror hərəkətləri törədərlər. Biz bunları yaxşı tanıyırıq. Yüz illərdir uca millətimizə qarşı pis hərəkətlərindən əl çəkmirlər. Ar olsun. Sərkisyan adında da adam olar? Daş düşsün sənin başına elə...

Bəli, xaricdə nazir vəzifəsi siyasi vəzifədir, ancaq bizdə siyasi oyunbazlığa ehtiyac yoxdur, rəhmətlik Murtuz müəllim bir vaxt parlamentimizdə haqlı olaraq dediyi kimi: "Bura siyasi diskussiya yeri deyildir".

Ümumiyyətlə, bizdə ən yaxşı praktika odur ki, naziri heç işdən çıxartmayasan. Nəyə lazımdır təzəsi, qoy 30 il, 40 il, 50 il eyni adam işləsin. Üzümüz-gözümüz öyrəşir, dəyişiklik axmaq şeydir. Atalar demişkən, hər şeyin təzəsi, nazirin köhnəsi. Nazir nazir olsa, bağ çəpəri neyləyir. Nazirə bax kreslonu al, kresloya bax çexolunu. Hər şey hazırdır, sən də hazırın naziri olursan. Nəsə, çox dərinə getməyək. Əsas odur, dövlətçiliyimiz sarsılmasın, respublikamızın flaqman gəmisi dünya siyasət okeanını yara-yara kosmosa doğru iri addımlarla irəliləsin! *(Ola bilər coğrafi sistem baxımından, istiqamət seçərkən müəyyən qarışıqlığa yol verdim, ancaq başqa yazarınız varmı? Yenə mənəm 30 ildir yazıram, oxuyursunuz, başqa köşə yazarı gəlsə, oxumağa heç zad tapmayacaqsınız. O üzdən klaviaturamın ətəyindən bərk yapışın).*

Vergilər nazirimizə isə uğurlar diləyir, ümid edirik, yaxın gələcəkdə onu səhiyyə naziri sifətində də görə biləcəyik.

# Kreml Bakının mövqeyi ilə razılaşdı

**"Gələn ilə qədər Rusiyanın Azərbaycandakı səfiri vəzifəsini müvəqqəti işlər vəkili Oleq Muraşov icra edəcək". Bunu «Report»a Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova ölkəsinin Azərbaycana yeni səfir təyin etməsi ilə bağlı məsələyə şərh verərkən deyib.**

"Hazırda Rusiyanın Azərbaycandakı səfiri vəzifəsinə bir neçə namizəd nəzərdən keçirilir. Konkret seçimdən sonra diplomatın namizədliyi Dövlət Duması tərəfindən təsdiq edilməlidir. Bu ana qədər diplomatik və ya deputat korpusundan heç kimin namizədin adını açıqlamaq hüququ yoxdur", - deyə Zaxarova bildirib.

*****

"Yeni Müsavat" xatırladır ki, bu il noyabrın 27-də Rusiya prezidenti Vladimir Putin Vladimir Doroxinin Rusiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb. Vladimir Doroxin 9 il idi ki, bu vəzifədə çalışırdı.

Bunu da yada salaq ki, V. Doroxinin xələfi kimi öncə tanınmamış Abxaziyada (!) Rusiyanı təmsil eləmiş birinin adı hallanırdı. Rəsmi Bakı onun namizədliyinə neqativ yanaşandan sonra ardınca ikinci analoji cəhd oldu - bu dəfə ermənipərəst mövqeyi ilə seçilən Georgi Zuyevin namizədliyi verildi və hətta Rusiya Dövlət Dumasının komitəsində təsdiqləndi. Təbii ki, erməni kökənli xarici işlər naziri Sergey Lavrovun və onun rəhbəri olduğu qurumda yuva salmış ermənipərəstlərin birbaşa təşəbbüsü ilə. Gözlənildiyi kimi, Bakı ona da aqreman vermədi.

Bundan sonra belə rəylər səsləndi ki, Rusiya rəsmi Bakının bu münasibətini qıcıqla qarşılayacaq və hətta iki ölkə arasında diplomatik qalmaqal yaşana bilər - həm də Rusiya "boz kardinalı" Lavrovun hikkəsi əsasında. Ancaq göründüyü kimi, məsələdə rəsmi Moskvanın, konkret olaraq prezident Vladimir Putinin iradəsi keçərli olub: Kreml həssas dönəm yaşayan ikitərəfli münasibətləri erməni maraqları xətrinə gərginləşdirmək istəməyib və Zuyevin namizədliyindən də imtina edərək, geri çəkilməli olub.




# Putindən ölkəmizə böyük jest - səfir məsələsində anlaşma

## Rusiya yeni səfirlə bağlı Azərbaycanın mövqeyinə "hə" dedi; XİN başçısı Sergey Lavrovun "dili və qulağı" sayılan Mariya Zaxarova ölkəmizə başqa səfirin göndəriləcəyini bəyanladı; Doroxinin xələfi kim olacaq, erməni dairələrin körüklədiyi siyasi qalmaqal qapandımı?..

Bunu Bakının Rusiya "boz kardinalı"na diplomatiya dərsi, bütövlükdə bu ölkədə rəsmi hakimiyyətə təsir gücünü saxlayan erməni çevrələrinə zərbə də adlandırmaq olar. Yeri gəlmişkən, bu ilin iyulunda Azərbaycan prezidenti İlham Əliyev həmkarı V.Putinlə Soçi görüşü zamanı Rusiyada, xüsusən də Rusiya Xarici İşlər Nazirliyində kök salmış ermənipərəst qüvvələrin Azərbaycan-Rusiya münasibətlərinin inkişafına əngəl yaratması, Qarabağ probleminin həllini sistemli şəkildə tormozlaması haqda onu xəbərdar eləmişdi, bu yöndə Kreml başçısını tədbirli olmağa çağırmışdı.

Söhbət əlbəttə ki, ən əvvəl Rusiyadakı erməni dairələrinin əsas liderlərindən və havadarlarından sayılan XİN başçısı Sergey Lavrovdan gedir. Məlumatlara görə, məhz bu səbəbdən Azərbaycan prezidenti Soçi görüşünün xarici işlər nazirlərinin olmadan keçirilməsində təkid edibki, Lavrovun destruktiv əməlləri barədə Putinlə arxayın şəkildə və sərbəst atmosferdə danışa bilsin.

*****

Bəs yeni səfir kim olacaq? Onun kimliyi hələlik naməlum olsa da, bir şey artıq məlumdur ki, o, Zuyev kimi birisi olmayacaq. Rusiyanın ölkəmizdəki yeni rəsmi təmsilçisi şəksiz ki, Azərbaycanla Rusiya arasında yeni etimad körpüləri yaratmalı, ən azından Doroxin dönəmindəkiləri saxlamalıdır, nəinki olan-qalan körpüləri yandırmaq. Düzdür, bu, çətin olacaq. Çünki Rusiyada, onun XİN-də həqiqətən Azərbaycana qarşı təşkilatlanmış, Rusiya-Azərbaycan əlaqələrini pozmağa yönəlik şəbəkə fəaliyyət göstərir. Rəsmi Bakının Zuyevlə bağlı pisliyini də bu şəbəkə çətin ki, unuda.

Ancaq Rusiyada Putin faktoru var - hansı ki, yeri gələndə erməni maraqlarını uqlaqardı edə bilir. Təsadüfi deyil ki, rusiyalı tanınmış telejurnalist Vladimir Solovyov İlham Əliyevlə Bakı görüşünün təəssüratlarını bölüşərkən, Azərbaycan prezidentindən belə bir sitatına diqqət yönəltmişdi: **"Putin bizi satmaz".** Yeni Azərbaycan rəhbərliyi Rusiya rəhbərliyinə, Lavrovun XİN-nə yox, konkret olaraq Putinə etibar edir.

**"Rusiyada kiməsə elə gələ bilər ki, Azərbaycana yeni səfir təyinatı miflərlə yoğrulacaq və ən ciddi problem kimi şişirdilir. Xeyr. Siyasi xırdalıqlar sandığında eşələnmək Azərbaycan diplomatiyasının məşğuliyyəti deyil. Bu daha çox Lavrovşinanın nəsibidir - hansı ki, Kremlin həqiqi dostlarını düşmən qismində, Qərblə Rusiya arasında var-gəl edən dönükləri isə (AB ilə saziş imzalayan Serj Sərkisyan - red.) sadiq tərəfdaş qiyafəsində təqdim eləməklə oriyentirlərin içində azıb". Bu fikir politoloq Tofiq Abbasovun səfir qalmaqalı ilə bağlı minval.az-a söylədiklərindəndir.**

Politoloqun qənaətini bölüşməmək mümkünsüzdür. Gerçəkdən də, nə qədər ki, Kreml Lavrov kimilərin erməni "dudkası"na uyub korporativ erməni maraqlarının yedəyində gedəcək, Rusiya nəinki Azərbaycanda, bütövlükdə postsovet məkanında (Ermənistan xaric) olan-qalan etimadını da itirəcək.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 256 (6870) 7 dekabr 2017

**Dekabrın 6-da səhər saat 6 radələrində Ukrayna hüquq-mühafizə orqanlarının qüvvələri Kiyevdə Ali Radanın qarşısında Mixail Saakaşvilinin tərəfdarlarının qurduqları çadır düşərgəsinə basqın edib. Lakin Saakaşvilini tapa bilməyiblər və toqquşmalardan sonra geri çəkiliblər. Ukrayna KİV-ləri xəbər verir ki, bir neçə avtobus dolu polis düşərgəyə daxil olaraq Saakaşvilini tapmağa çalışıb. Bu vaxt Saakaşvilinin tərəfdarları polislərin qarşısını kəsib, toqquşma başlayıb. Polis gözyaşardıcı qaz tətbiq etsə də aksiyaçılar davam gətiriblər və asayiş keşikçiləri gəldikləri avtobuslara minərək geri çəkilməli olublar.**

# ABŞ Dövlət Departamenti Saakaşvilinin müdafiəsinə qalxdı

## **Politoloq:** "Amerika Ukraynada proseslərin yeni məxməri inqilaba doğru getməsində maraqlı deyil"



Saakaşvili özünün facebook səhifəsində yazıb ki, güc strukturlarının əməkdaşları çadır düşərgəsində onu yaxalamaq istəyib. Lakin çadırı səhv salıb və onun qaldığı çadıra deyil, qonşu çadıra daxil olaraq içəridə yatanları döyməyə başlayıblar. Bu vaxt düşərgədəkilər oyanıblar və asayiş keşikçiləri ilə toqquşma başlayıb.

Xatırladaq ki, Ukrayna Təhlükəsizlik Xidmətinin "Alfa" xüsusi təyinatlı dəstəsi dekabrın 5-də Saakaşvilinin Kiyevdə yaşadığı evə basqın edilib. Buna görə sabiq prezident yaşadığı binanın damına çıxaraq intihar edəcəyini deyib. Xüsusi təyinatlı dəstə onu binanın damında yaxalayıb. Lakin Saakaşvilinin tərəfdarları onun mindirildiyi avtobusu mühasirəyə alıblar və bir neçə saatlıq mühasirədən sonra avtobusun qapısını sındırıb keçmiş prezidenti azad ediblər. Bundan sonra Saakaşvili öz tərəfdarları ilə Ali Radanın qarşısına yürüş edərək prezident Petro Poroşenkonun istefası tələbi ilə aksiyalara başlayıb. Ukrayna hüquq-mühafizə orqanları Saakaşvilini Rusiya ilə əlbir olaraq ölkədə dövlət çevrilişi hazırlamaqda ittiham edir. Baş prokuror Yuri Lutsenko ona istintaqa təslim olmaq üçün 24 saat vaxt verməşdi.

Dünən isə Ukrayna Baş Prokurorluğu Mixail Saakaşvilini axtarışa verib. Bu barədə Baş Prokurorluğun mətbuat katibi Larisa Sarqan twitter səhifəsində yazıb.

O bildirib ki, Saakaşvili axtarışa verilib. Axtarış işləri Ukrayna polisinin və Ukrayna Təhlükəsizlik Xidmətinin operativ bölmələrinə tapşırılıb.

**ABŞ Dövlət Departamentindən isə dünən Mixail Saakaşvili ilə bağlı Ukrayna hakimiyyətinə çağırış olub. ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Xezer Nauert bildirib ki, ABŞ Ukraynada bütün tərəfləri Gürcüstanın sabiq prezidenti və Odessa vilayətinin keçmiş qubernatoru Mixail Saakaşvilinin ətrafındakı vəziyyətlə bağlı zorakılıqdan çəkinməyə çağırır:** "Biz bu vəziyyəti və Kiyevdə baş verənləri diqqətlə izləyirik. Biz Ukrayna hökuməti ilə sıx əlaqədəyik, siz bilirsiniz ki, bizim onlarla yaxşı münasibətlərimiz var, amma bu o demək deyil ki, biz hər şeydə onlarla tamamilə razıyıq. Biz Ukrayna hakimiyyətini vəziyyətin de-eskalasiyasına çağırırıq... Biz bütün tərəfləri zorakılıqdan çəkinməyə, hüququn aliliyini qorumağa və beynəlxalq öhdəliklərə əməl etməyə səsləyirik".

X.Nauert vurğulayıb ki, əgər Ukrayna hakimiyyəti kimisə saxlayırsa, həbs edirsə, bu, o ölkənin qanunlarına və normalarına, eləcə də insan hüquqları sahəsində beynəlxalq öhdəliklərə uyğun olmalıdır.

**Maraqlıdır ki, Rusiyadan da Saakaşvilinin müdafiəsi istiqamətində açıqlama verilib. Belə ki, Rusiya liberal-demokratlarının lideri, Dövlət Dumasının üzvü Vladimir Jirinovski Mixail Saakaşvili ətrafında baş verənlərin Ukrayna hakimiyyətinin özünün əsl demokratikliyi barədə iddialarını inkar etdiyini bildirib. Onun sözlərinə görə, Saakaşvilini izləməklə Ukrayna hakimiyyəti özünü biabır edir:** "Rusiyaya münasibətdə necə yaramaz olsa da, onun canavar kimi, özünü tamamilə işə həsr etməklə işlədiyini inkar etmək olmaz. Bunu onun əlindən almaq mümkün deyil. Ukrayna "demokratları"na sərf etməməyə başlayan kimi uydurma bəhanə ilə Saakaşvilini işdən azad etdilər, onun Poroşenkonun impiçmentinə nail olacağını bildirməsindən sonra isə vətəndaşlıqdan məhrum etmək fikrinə düşdülər. Lakin Saakaşvili iradəsini göstərdi və ölkəyə qayıtdı, tərəfdarlarını topladı və Poroşenkonun dinc yolla getməsi tələbini qoydu. Bəs "demokratik" hakimiyyət necə cavab verdi? Onu tutmaq istəyirlər. Heç bunu da bacarmırlar... Mişadan əl çəkin!"

Bəs ABŞ Dövlət Departamentindən verilən açıqlama Mixail Saakaşvilinin başlatdığı prosesin daha da böyüyəcəyi və onun hakimiyyətə gətiriləcəyi ehtimalını yaradırmı?

**Politoloq Qabil Hüseynli hesab edir ki, Ukraynada hadisələr çox dramatik şəkildə inkişaf eləməyəcək. Saakaşvilinin hərəkətlərinin Ukraynada hadisələrin daxili sabitliyin pozulmasına aparacağı təhlükəsi müəyyən qədər də olsa var:** "Ukraynada sabitliyin pozulmasında ən çox maraqlı olan ölkə Rusiyadır. Ukraynanın bəzi dairələri hesab edirlər ki, Saakaşvili özü bilmədən Rusiyanın istədiyi bir oyunun içinə düşüb. Onun ətrafında olanların bir çoxu, xüsusilə də ona başladığı prosesə maliyyə yardımı vəd edən bəzi oliqarxlar Rusiya ilə əlbir olan adamlardır. Ukraynada sabitliyin pozulmasında maraqlı olan Rusiyanın xüsusi xidmət orqanları Kiyevdə vəziyyəti gərginləşdirmək üçün maksimum qüvvə sərf edir. Diqqət edirsinizsə, Kremlin danışan dillərindən biri sayılan Jirinovski Saakaşvilini müdafiəyə qalxıb. Bu, heç də Saakaşvilini sevməkdən, onu qorumaq istəyindən irəli gəlmir. Məqsəd yaranmış vəziyyətdən Ukraynanın daxilində gərginliyin daha da artması üçün istifadə etməkdir. Saakaşvilinin ətrafına toplanan kütlənin içində xeyli sayda Rusiya xüsusi xidmət orqanlarının əli ilə gələn insanlar var. Toplanan insanların sayı elə də çox deyil və yeni Maydan hərəkatı yaradacaq səviyyədə deyil. Saakaşvilinin emosionallığı özünün zərərinədir. Onun hərəkətləri hazırda azlıq tərəfindən rəğbətlə qarşılanır. Belə bir şəraitdə hətta böyük dövlətlərin dəstəyi olsa belə, onun Ukraynada xalqın böyük hissəsini ayağa qaldırıb hakimiyyəti dəyişməsi mümkün görünmür. Digər tərəfdən, hələ ABŞ hazırkı prezident Petro Poroşenkoya ümidlərini üzməyib".

**Politoloq vurğuladı ki, Vaşinqton Poroşenko ilə işləməkdən vaz keçmiş kimi görünmür. ABŞ-ın Ukraynada hakimiyyət dəyişikliyinin olması qərarına gəldiyini söyləmək üçün ortada əsaslar yoxdur:** "Bu faktor da Saakaşvilinin yolunu kəsir. Bu gün Ukraynada hər hansı siyasi dalğalanma, daxili sabitliyi pozacaq hər hansı bir hərəkətin Ukrayna üçün çox dramatik nəticələrə gətirib çıxaracağını Vaşinqton dəqiq bilir. Ona görə qətiyyən bu ölkədə daxili gərginliyin artmasını istəmir. Mixail Saakaşvilinin bu cür aktivləşməsinin ABŞ-ın istəyi ilə olduğu inandırıcı deyil. ABŞ Ukraynada proseslərin yeni məxməri inqilaba doğru getməsində maraqlı deyil. Saakaşvili Dövlət Departamentinin müdafiə etməsi, sadəcə olaraq, müəyyən prinsiplərdən irəli gəlir. Lakin müdafiə anlamı verən açıqlama heç də o demək deyil ki, ABŞ Saakaşvilini hakimiyyətə gətirmək istəyir. Əslində Mixail Saakaşvili siyasətçi kimi tam iflasa uğramanın astanasındadır. Qərb, sadəcə, onun tamamilə iflasa uğramasını, siyasi fiqur kimi mövcudiyyətini saxlamasını istəyir. ABŞ Dövlət Departamenti, sadəcə olaraq, ona və ətrafına toplanan insanlara qarşı güc tətbiq edilməməsini istəyir. Bu isə ABŞ-ın Saakaşvilini hakimiyyətə gətirmək istəməsi anlamına gəlmir".

# Aİ-yə inteqrasiya müqəddəratımızı bu quruma həvalə etməkdirmi...

## Səməd Seyidovun qəfil bəyanatından çıxan nəticələr



**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bəyan edib ki, Azərbaycan Avropa İttifaqına inteqrasiyanın deyil, bu birliklə qarşılıqlı faydalı əməkdaşlıq etməyin tərəfdarıdır.**

O, fikrini belə əsaslandırıb ki, hər hansı birliyə inteqrasiya ölkənin müqəddəratını həmin təşkilata həvalə etmək deməkdir: "Azərbaycan çoxtərəfli münasibətləri inkar etmir. Biz də nə vaxtsa Avropa İttifaqı ilə müqavilə imzalayacağıq. Lakin bu gün bizim əsas prioritetimiz strateji əməkdaşlığı genişləndirməkdir. Gələcəkdə isə Avropa İttifaqı ilə münasibətləri çox ciddi təhlil edəndən sonra bu təşkilatla Azərbaycanın maraqlarına uyğun hər hansı bir saziş imzalanacaq".

Azərbaycan prezidentinin noyabrın 24-də Brüsseldə Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramı Zirvə toplantısında iştirakı və orada çıxışı zamanı səsləndirdiyi bəyanatlar ölkəmizin Avropa İttifaqına inteqrasiyanın, yaxınlaşmanın tərəfdarı olduğu barədə rəyi bir qədər möhkəmlətmişdi.

Səməd Seyidovun Brüssel sammitindən cəmi 10 gün sonra belə bir bəyanatla çıxış etməsinin hansı zərurətdən ortaya çıxdığı bu baxımdan maraq doğurur.

Beynəlxalq məsələlər üzrə siyasi ekspert Elşən Mustafayev "Yeni Müsavat"a şərhində bildirdi ki, bu açıqlama Avropa İttifaqı ilə bağlı Azərbaycanın qəbul etdiyi bir sıra sənədlərdə əks olunan məqamlara, verilən bəyanatlara uyğun deyil. Ziddiyyət təşkil edir. Səməd Seyidovun işlətdiyi ifadələr "növbətçi" bir ifadələrdir: "Yəni deməyə bir söz tapmayanda nəsə demək kimi. Xeyli müddətdir ki, Avropa İttifaqı ilə Azərbaycan arasında yeni sazişin layihəsinin hazırlanması üzərində iş gedir. Bu iş maddə-maddə, cümlə-cümlə müzakirə olunur. Bu işi Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev aparır. Mahmud Məmmədquliyev dəfələrlə açıqlamalarında bəyan edib ki, Azərbaycan Avropa İttifaqı ilə sıx əməkdaşlıq, inteqrasiya tərəfdarıdır. Nazir müavininə bu iş ölkə rəhbərliyi tərəfindən həvalə edilib. Deməli, onun verdiyi açıqlamalara da ciddi yanaşılmalıdır. Səməd Seyidova isə belə bir sual ünvanlanmalıdır ki, sabah Avropa İttifaqı ilə Azərbaycan saziş imzalayanda məgər bu, ölkənin müqəddəratının Avropa İttifaqına həvalə olunması deməkdirmi? Əsla yox. Birincisi, söhbət Azərbaycanın Avropa İttifaqı üzvlüyünə qəbuldan getmir ki, desinlər iqtisadi və digər sahələrdə öhdəliklər olacaq və bir çox sahələr Avropa İttifaqına həvalə olunacaq. İkincisi, biz istəsək belə, Avropa İttifaqı üzvlüyünə qəbulumuz bəlli səbəblərə görə mümkün deyil. Səməd Seyidov bilməlidir ki, Avropa İttifaqı ilə saziş imzalanmasının özü elə strateji əməkdaşlığın genişləndirilməsi deməkdir və bundan o yana deyil".

**Ekspert hesab edir ki, Səməd Seyidovun bu açıqlamalarının bir neçə səbəbi var:** "Birinci səbəb bir müddət öncə Ermənistanın Avropa İttifaqı ilə imzaladığı sazişdir. Ermənistan Rusiyanın dostudur, onun hərbi və iqtisadi sahədə yaratdığı bütün ittifaqlarda tamhüquqlu üzvdür. Buna baxmayaraq, Avropa İttifaqı ilə saziş imzalayır. Bu, o deməkdir ki, Avropa İttifaqına inteqrasiya və saziş imzalanması ölkənin müqəddəratını əldən vermək deyil. "Rusiyanın forpostu olan Ermənistan Avropa İttifaqı ilə saziş bağlayır biz niyə yox?" suallarına cavab verə bilmədiyinə görə Seyidov belə açıqlamalar verməyə məcburdur. Digər səbəb isə hesab edirəm ki, son vaxtlar Avropa İttifaqı ilə Azərbaycan hökuməti arasında Avropa İnsan Haqları Məhkəməsinin qərarlarının yerinə yetirilməməsi ilə bağlı yaranan problemdir. Bilirsiniz ki, bu mövzu hakimiyyət üçün çox həssasdır. Amma bu məsələlər Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığına inteqrasiyaya mane olmamalıdır. Rusiyanın forpostu olan Ermənistanın Avropa İttifaqı istiqamətində atdıqları addımlardan sonra isə xüsusilə bu sahədə işlər gücləndirilməlidir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 256 (6870) 7 dekabr 2017

# “Azərbaycanın ən zəngin rəssamı mənəm”

## Azərbaycanın əməkdar rəssamı Əşrəf Heybətov:
## “Mən harada yaşayıramsa, ora elə Azərbaycandır”

**Azərbaycanın əməkdar rəssamı Əşrəf Heybətovla sonuncu dəfə martda Moskvada görüşmüşdük. Almaniyada yaşayan rəssam payızda Bakıya gələcəyini demişdi. Ancaq dəqiq tarix bilinmirdi. Bir neçə gün öncə televiziya kanallarını ixtiyarsız çevirirdim ki, ATV-də Əşrəf bəyin Qala Mədəniyyət Mərkəzindəki sərgisindən reportajı gördüm. Bakı nömrəsindən arayıb “xoş gəldin” edəndən sonra görüşməyi, müsahibəni təkrarlamağı qərara aldıq.**

*Söhbətə başlar-başlamaz anladım ki, məmləkət üçün darıxıb:*

- Hələ bir neçə gün də Bakıdayam. Azərbaycanı heç vaxt unutmuram. Çalışıram hər il gəlim, gələndə də mütləq bölgələri gəzim. Əslən bakılı olsam da, mənə elə gəlir, rayon, kənd gəzməsəm, Azərbaycanı ürəyim istəyən qədər duya bilmirəm. Milli Məclisin üzvü Elmira Axundova ilə ailə dostlarıyıq. O, Milli Məclisdə Masallını təmsil edir, bizi dəvət elədi, Masallıya getdik. Oradakı mədəniyyət mərkəzində ustad dərsləri verdim. Sevindim ki, əyalətlərdə də istedadlar yetişir, onlar üçün şərait yaradılır. Eşitmişəm ki, rayonlarda mədəniyyət mərkəzləri açılır, çox sevinmişəm. Uşaqları kiçik yaşdan incəsənətə yönəltmək həm milli mədəniyyətin qorunması, həm də psixoloji sağlam gənclik yetişməsi üçün önəmlidir. Bu ölkənin gələcəyinə qoyulan çox ciddi kapitaldır. Təbiətimiz gözəldi. Masallıda İsti suya getdik, dağları doyunca seyr etdim. Payız füsunkardı...

***- Çox ölkələr gəzirsiniz, ən gözəl, sizi əlinizə fırça almağa məcbur edən payız harada qarşınıza çıxıb?***

- Əslində çox az peyzaj çəkirəm. Mən monumentalistəm. Ancaq bəzi əsərlərimdə milli peyzaj elementləri var. Son vaxtlar isə daha çox realistik peyzajlara üstünlük verirəm. Bu ruhuma çox yaxındır. Rəssam kimi bütün “izm”ləri keçmişəm. Modernizm, impressionizm, konstruktivizm, kubizm, ən çox müraciət etdiyim janrlardan biri ekspresionizm... İndi yenidən realistik peyzaja qayıdıram. Bu, Səttar Bəhlulzadədən başlayaraq bir çox Azərbaycan rəssamlarının müraciət etdiyi yoldur. Ona görə də indi təbiəti seyr etmək, hətta saatlarla ona dalmaq mənə xüsusi zövq verir. Ən gözəl payız mənzərəsini ölkələrə bölməkdə çətinlik çəkirəm. İstənilən yerdə rənglərin təması, təbiətin ecazkarlığı insanın, xüsusən rəssamın gözünə dünyanın ən gözəl mənzərəsi kimi görünə bilər. Təbii, bu bir az da həmin andakı ovqata bağlıdır. Azərbaycan 4 fəsli yaşadığından təbiəti ilin hər fəslində gözəldir. Amma təbiəti duymaq üçün şəhərlərdən kənara çıxmaq vacibdir. Şəhərlərdəki təbiət düzən verilmiş təbiətdir. Xəlq olunanı olduğu kimi görmək üçün betondan, asfaltdan uzaqlaşmalısan. Yalnız onda avtomobillərin tüstüsü ilə boyanmayan əsl səmanın, əsl yarpağın, əsl otun rəngini görmək olar. Danışa-danışa düşünürəm ki, deyəsən, ən gözəl payızı Moskva ətrafında görmüşəm. Bəlkə də onu böyük Puşkin tərənnüm etdiyi üçün belə düşünürəm... Böyük rus rəssamları, realistik peyzaj ustaları Polenov, Levitan da



Moskva ətrafındakı payıza neçə əsərlər həsr ediblər. Azərbaycandakı payızda məni ən çox valeh edən dağların moruğu-qırmızı rəngidir. Bu il Şamaxıda, Qubada, Qusarda, Qəbələdə, Masallıda dağların rəngini yaddaşıma köçürdüm. Gələn il isə Aranı, Muğanı gəzmək istəyirəm. Çayqırağı kəndlərin də öz gözəlliyi var.



***- Əşrəf bəy, sizin əsərlərinizdə saysız insan simaları var. Hamısı da fərqli, özünəməxsus. Aydındır ki, çox müşahidələr aparırsınız. İldən-ilə insanların simasında nələr dəyişir, nələr kəşf edirsiniz?***

- Kədərin artdığını görürəm. Bakıda bu lap aydın hiss olunur. Baxırsan ki, şəhər “ütülənir”, sakitlikdir, ancaq insanların üzünə baxanda ilk gördüyün kədərdir. Yəqin səbəblər var. Həyat şərtləri insanları incidir və bu onların simasını olduqca qayğılı göstərir. Burada insanların gözləri danışır. İndi dünya belədir - elə bir yer göstərin ki, orda həyat asandır. Hər ölkənin, hər toplumun öz çətinlikləri, qayğıları var. Demokratiyanın tərs üzü - cinayətkarlıq, qadın, narkotik alveridir. Qərb də bundan əziyyət çəkir. Hardan baxsan, bizim ölkəmizdə həm də müharibə havası var, axı. Həlak olanlar, yaralılar, atışmalar... Bəlkə də ölkə içində çox da hiss olunmur, amma kənardan aydın görünür.

***- Siz Qarabağ danışıqları ilə bağlı böyük bir tablo işləmisiz. Orada danışıqların nəticəsizliyinə işarə var... Adı da maraqlıdır...***

- “Danışıqların havası”... Fevralda Xocalı soyqırımının 25 illiyi ilə bağlı Almaniyada böyük bir tədbir planlaşdırılırdı. Ötən il Azərbaycan-Avropa Cəmiyyətinin təmsilçiləri məndən Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsi mövzusunda 3-4 əsər işləməyimi istədirlər. Onlar Almaniya dərgilərindən birində mənim Xocalı haqqında panomu görmüşdülər. Həmin panonu mən 2 il öncə İstiqlal Muzeyinə bağışlamışam. Təbii, mən bu təklifdən imtina edə bilməzdim, ölkəmə bu məsələdə dəstək vermək mənim borcumdur. Beləliklə, başladım Xocalı mövzusunu yenidən işləməyə. Məsələyə o qədər içdən yanaşdım ki, 4 yox, düz 25 əsər işlədim. Hamısı da böyük formatda. Almaniya-Azərbaycan cəmiyyəti belə miqyası görüb sərgi keçirməyi qərara aldı. Xocalı faciəsinin 25 illiyində Almaniya ictimaiyyətinin böyük diqqətinə səbəb olan tədbir və sərgi keçirildi. Berlinin ən bahalı rəsm qalereyalarından biri olan Şults Qalereyasında günlərlə mənim Qarabağla bağlı əsərlərim sərgiləndi. Əsas hədəfimiz Almaniya ictimaiyyətinin diqqətini cəlb etmək idi. Çünki biz azərbaycanlılar öz ölkəmizin problemlərindən xəbərdarıq, Beynəlxalq dəstək almaq üçün biz önəmli ölkələrin diqqətini çəkəcək addımlar atmalıyıq.

***- Əşrəf bəy, bayaq Bakının “ütüləndiyindən” söz saldınız. İçərişəhərə yolunuz düşür? Sizə doğma məkandan, doğulduğunuz İçərişəhərdən nələrsə qalır?***

- Darıxan kimi gedirəm İçərişəhərə. Ancaq orda da müsbət tendensiyalarla yanaşı qədimliyin qorunmadığını görüb darıxıram. Qədim şəhəri sanki yalnız turistlər üçün düzəldirlər - hotellər, restoranlar, milli mədəniyyət nümunələrinin satış mərkəzləri açılır. Bütün bunlar çox yaxşıdır - Bakıya gələnlər qədimliklə yeniliyin sintezindən zövq alırlar, şəhərə yenə qayıtmaq istəyirlər, turizm inkişaf edir. Ancaq İçərişəhəri başdan-başa alqı-satqı mərkəzinə çevirmək də olmaz. Bunun üçün İçərişəhərdə bir neçə meydan var. Amma Bakını bəzilərinin istədiyi kimi Nyu-Yorka, Çikaqoya çevirə bilməyəcəklər. Bakının cazibəsi başqadır. Narahat olduğum bir məqam da yalnız mərkəz hissəyə diqqət ayrılmasıdır. Axı şəhərin baş memarı var... Hansı səbəbdən mərkəzdən azca aralanan kimi boz, rəngsiz, heç nə ilə yadda qalmayan bir şəhər görürük? Şəhəri qonaqlar bəyənir- bu əladı, amma şəhər daha çox sakinləri üçün rahat olmalıdır. Bizim evimizi 1962-ci ildə söküb yerinə Milli Ensiklopediyanın binasını tikdilər, bizi də Nərimanov prospektinə köçürdülər. Ona görə mənim üçün xatirələr bir az dağınıqdı. Bir də, mənim üçün vətən anlayışı yalnız coğrafi deyil. Mən harada yaşayıramsa, ora elə Azərbaycandır. Evimdə hər zaman Azərbaycan bayrağı, Azərbaycan motivləri... Mən hər zaman bu ab-havada yaşamışam və dünyanın hansı şəhərində olmağımdan asılı olmayaraq bundan çıxa bilmərəm.

***- Hər dəfə sizinlə söhbətdə təəccübləndiyim bir fakt da var. Çox gənc yaşlarınızda Moskvaya köçmüsünüz, ondan sonra Almaniya həyatınız başlayıb, aşağı-yuxarı 50 ildir Azərbaycanda deyilsiniz, üstəlik, xanımınız da yəhudidir, ancaq siz ana dilində yaxşı danışırsınız... Kiminlə danışırsız Almaniyada, necə olur ki, dili unutmursuz?***

- Demək olar, heç kimlə. Almaniyada türklərlə az-çox təmaslarımız olur. Mən onlarla Bakı, onlar da mənimlə Anadolu ləhcələrində danışırlar. Əsas odur bir-birimizi anlayırıq. Dil düşüncə üçün önəmli faktordur. Düzdü, fikirlərimi ana dilində bədii cümlələrlə ifadə etmək mənim üçün çətindir, yazı da yaza bilmərəm, amma çalışıram bacardığım qədər dilimi itirməyim. Bu işdə milli musiqi dadıma çatır...



***- Bayaqdan əsərlərinizə baxıram, amma heç Avropanı görmürəm. Niyə?***

- Almaniyanı qrafik əsərlərdə çəkirəm. 5 il öncə mənim dəyərli dostum Kamal Abdullanın təşəbbüsü ilə Slavyan Universitetində qrafik əsərdən ibarət “Almaniya haqqında 40 qrafik əsər” adlı sərgi keçirmişdik. İndi artıq bu rəsmlərin sayı 100-ə çatıb. Yaxınlarda albom çapı nəzərdə tutmuşuq. Bu albom yaradıcılığımın Avropa hissəsinin siması olacaq. Lüksemburq peyzajı üzrə də seriya əsərlərim var. Almaniya şəhərlərini, Doğu Avropanı çox çəkmişəm. Adətən ruhuma yaxın olanı kətana köçürürəm. Mənə ən yaxın olan isə Azərbaycandır - insanımız, təbiətimiz, qayğımız, sevincimiz, gələnəklərimiz... Ölkəmi çəkəndə daha böyük məmnunluq hissi yaşayıram. Məni Avropada da Azərbaycanı çəkən rəssam kimi tanıyırlar. Doğma mövzularımdan biri də türk dünyasıdır. Bu mövzuda Türkiyədə, Rusiyada, Avropada neçə sərgim keçirilib, nə qədər təşəkkürlər, mükafatlar almışam. İlk xarici sərgim də 1994-cü ildə Ankarada olub. Sərgi təklifini Rusiyanın Ankara böyükelçisi Albert Çernışovdan almışdım, qısa zamanda hazırlıqları bitirmişdim. Həmin sərginin maraqlı faktlarından biri də o idi ki, böyükelçinin də, mənim də çıxışlarımı indi prezident Putinin mətbuat katibi olan Dmitri Peskov çevirirdi. 1994-cü ildə o, Ankara böyükelçiliyinin mətbuat attaşesi idi. Biz Ankarada yaşayanda o həm də bizim mərtəbə qonşumuz idi. Hər zaman “bizim Dima” ilə yaxşı münasibətlərimiz olub və bu gün də qalmaqdadır. Moskvada - Beynəlxalq Əlaqələr İnstitutunda gələn ilin mart ayında keçiriləcək sərgimə yəqin cənab Peskovu da dəvət edəcəyəm.

***- Diplomatik korpusla əlaqələrinizin geniş olduğunu bilirik. Bu dəfə Bakıda keçirilən sərginizə Hindistanın Bakı böyükelçiliyinin diqqəti xüsusi olub...***

- Cənab səfir Sanjay Rana ilə çox yaxşı münasibətlərimiz var. O, mənim hind mədəniyyətinin vurğunu olduğumu bilir. 2 dəfə Hindistanda, Nepalda olmuşam. Həmin səfərin təəssüratları ilə onlarla əsər yaratmışam, Bakıda, Moskvada, Avropada sərgilərdə nümayiş etdirmişəm. Səfir bakıdakı iqamətgahında da mənim fərdi sərgimi keçirib. Yenə o yerlərə getmək arzusundayam. Açığı, özümə yoldaş axtarıram. O yerlər mənə çox yaxındır.

***- Nə ilə yaxındır?***

- Mənə elə gəlir, Hindistan və Azərbaycan mədəniyyətləri arasında daxili bir bağ var. Hind mədəniyyəti ilə tanış olduqda bu yaxınlığı hiss etməmək mümkün deyil. Hind mədəniyyətinin ən parlaq məkanları Tacmahalı, Caypuru, Varanaxı çox həvəs və böyük zövq alaraq gəzirəm. Bu zövqü anlatmaq çətindir. Məsələn, siz qızıl gülün ətrini necəsə izah edə bilərsiz? Mənim Hindistana sevgimi də qızıl gülün qoxusu kimi izah etmək çətindir.

***- Əşrəf bəy, Azərbaycanın rəngkarlıq məktəbinin indiki durumunu necə qiymətləndirirsiniz?***

- İndi realizm məktəbindən daha çox uzaqlaşır Azərbaycan rəssamları. Bəlkə də yanılıram... Amma gördüyüm budur. Rəssamlıq qabiliyyətini Yaradan verir, amma məktəb keçmədən, insan fiziologiyasını bilmədən, təbiət qanunlarını öyrənmədən böyük rəssam olmaq mümkün deyil. Məktəb vacibdir. İstedad məktəblə təkmilləşir, yalnız o zaman rəssam öz sənət dilini tapa, yarada bilir.

***- Rəsm əsərləri həm də rəngkarın yaşam qaynağıdır. Reklamın bu məsələdə rolu nə qədərdir?***

- Çox böyük. Elə rəssamlar var, məmurlarla yaxınlıq sayəsində əsərlərini baha qiymətə satır və bunu özləri üçün “yaxşı rəssam”lığın sübutu kimi qəbul edir, ətraf da buna inandırır. Yoxlasaq görərik ki, o zəngin məmurların çoxunun sənətlə bağlı elementar anlayışları yoxdur. O məmur sadəcə bilir ki, aristokratiya evinin divarlarını orjinal əsərlə bəzəyir və onları yamsılayır. Beləliklə, meydanda sənətə az dəxli olan amma güclü reklam edilən insanlar çıxır. Bu çox mənfi tendensiyadır. Beləcə əsl sənətin kriteriləri itir. Təəssüf ki, bu yalnız Azərbaycan incəsənətinin yox, dünya incəsənətinin bəlasıdır. Fırçanı yenicə tutmağı öyrənən gəncin qarşısına hardasa bir pullu insan çıxsa və o, zibillikdən yığdığı kağız-kuğuzu ona sənət əsəri kimi təqdim edə bilsə, bütün həyatını təmin etməkdən başqa, özünü sənət adamı saymağa başlayır.



***- Əsərlərinizi baha satırsız?***

- Hətta çəkdiyim xərc və zəhmətə baxanda çox ucuz satıram. Daha çox bağışlayıram. Bir professional kimi çox istərdim ki, əsərlərim baha alınsın. Amma mən qalereyalarda bunun üçün günlərlə müştəri gözləyən rəssam tipinə aid deyiləm. Əsərlərimi ölkəmin maraqları üçün hansısa diplomata bağışlayanda və sonradan o əsərləri dünyanı idarə edən qurumların binalarında görəndə özümü dünyanın ən zəngin rəssamı sayıram. Satış ardınca qaçmadığım üçün həm Azərbaycanın, həm də Avropanın əsərləri beynəlxalq qurumların binalarının ekspozisiya salonlarında sərgilənən nadir rəssamlarındanam. O salonlara seyrçi kimi düşmək belə çox çətindir. Azərbaycan adına bundan böyük qazanc nə ola bilər?

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 255 (6869) 6 dekabr 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Ermənistanın Ağdam təxribatı, həmsədrlərin danışıq şousu...

## İşğalçı ölkənin parlamenti Vyana görüşü ərəfəsində Rusiya ilə silah sazişini təsdiqlədi-beynəlxalq aləmə şifrəli mesaj;

## Sərkisyan Qarabağ məsələsini 2019-a saxlamaq istəyir: "Bizim üçün önəmli olan Rusiyada dəyişikliklərin baş verməsidir"

**Vyanada Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici işlər naziri Edvard Nalbəndyan arasında növbəti görüşün keçiriləcəyi barədə xəbərlər yayıldığı ərəfədə Ermənistan ordusunun Ağdamda təlimlər keçirdiyi xəbəri yayıldı.**






Məlumata görə, işğalçı ordu ərazilərimizdə irimiqyaslı hərbi təlimlərə başlayıb. Şübhə yox ki, bu, İrəvanın Vyana danışıqlarına "cavabı"dır. Bundan əvvəl Ermənistan prezidenti Cəbrayıl-Füzuli bölgəsindəki hərbi təlimləri izləmək üçün şəxsən Qarabağa gəlmişdi. Düşmənin davamlı şəkildə hərbi təlimlər keçirməsi, Ermənistan prezidentinin hərbi ritorikaya üstünlük verməsi Vyana danışıqları barədə hansısa xəbər gözləyib onu şərh etməyi belə lüzumsuz edir. Məntiqlə işğalçının bu davranışlarına həmsədrlərin birmənalı münasibətindən sonra görüş keçirilə bilərdi. Məlumata görə, ATƏT-in Minsk Qrupu həmsədrləri də Qarabağ mövzusuna həsr olunan nazirlərin görüşündə iştirak etməyiblər. Qeyd edək ki, hər iki nazir dekabrın 7-8-də keçiriləcək ATƏT-in xarici işlər nazirləri toplantısı çərçivəsində Vyanada səfərdədir.

Bu arada İrəvan sülh danışıqlarına daha bir addımı ilə "qarşılıq" verib. Belə ki, Ermənistan parlamenti Rusiyadan 100 milyon dollarlıq yeni müdafiə kreditini ratifikasiya edib. Qərarın "lehinə" yekdilliklə 92 deputatın hamısı səs verib. Kredit xətti Ermənistan tərəfindən 2018-2022-ci illərdə istifadə edilməlidir. Həmin pullarla Ermənistan Müdafiə Nazirliyi Rusiyadan aldığı silah-sursatın məbləğinin 90%-ə qədərini ödəyə bilər. Saziş layihəsinə əsasən, kredit 15 il ərzində (2023-2037-ci illər) illik 3% dərəcəsi ilə qaytarılmalıdır. İşğalçının bu addımı da danışıqların mənasızlığına işarədir.

"2017-ci il başa çatır və çox güman ki, yaxın bir neçə ay ərzində Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı hər hansı bir fundamental dəyişiklik baş verməyəcək. Bunun üçün elə də ciddi əsas yoxdur". Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a mövcud situasiyanı şərh edərkən bunları bildirdi.

Ekspert ümidsizliyini aşağıdakı arqumentlərlə əsaslandırdı: "Münaqişənin əsas səbəbkarı və mövcud status-kvonun qarantı olan Rusiyanın mövqelərində heç bir dəyişiklik baş verməyib. Ermənistan Avropa İttifaqı ilə saziş imzaladıqdan sonra Rusiya KİV-lərində baş qaldıran saxta isterikaya da gündəmi dəyişmək üçün istifadə olunan texnologiyalardan biri kimi yanaşmaq lazımdır. Rusiyanın münaqişənin ədalətli həlli üçün Azərbaycana təqdim edəcəyi heç nə yoxdur. Birdəfəlik qəbul etmək lazımdır ki, Moskva ədalətli sülhə nail olmaq üçün addım atmayacaq və yalnız öz maraqlarından çıxış edəcək. Bu maraqlar Rusiyanın daxili və xarici siyasətində fundamental dəyişikliklər baş verməmdən müstəqil Azərbaycan dövlətinin prioritetləri ilə üst-üstə düşməyəcək. Bu gün təkcə münaqişələrin deyil, postsovet məkanında mövcud olan bütün ictimai-siyasi, sosial-iqtisadi və hətta mədəni problemlərin əsas səbəbkarlarından biri Rusiyadır. Dövlət idarəçiliyinin Rusiya modeli postsovet respublikalarına neqativ təsir göstərən ən böyük problemlərdən biridir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün ilk növbədə Rusiya dəyişməlidir, hədəfləri, prioritetləri daha sivil, daha modern olmalıdır".

Qeyd edək ki, 2018-ci ildə həm Azərbaycan və Ermənistanda, həm də Minsk Qrupunun həmsədrlərindən biri olan Rusiyada prezident seçkiləri keçiriləcək. Seçki ilində isə münaqişənin həlli istiqamətində ciddi addımların atılması real görünmür. Xüsusilə də aprel ayında prezidentlik səlahiyyətləri tamamlanacaq Serj Sərkisyan baş nazir kreslosuna sahiblənmək üçün Qarabağ kartından istifadə edəcək ki, burada da konstruktiv mövqenin sərgiləncəyini gözləmək mümkün deyil. Düzdür, Sərkisyan ötən ay "Ermənistanı ağrılı qərarlar gözləyir" demişdi. Lakin onun sonrakı davranışları, Qarabağdakı hərbi təlimlərə rəhbərlik etməsi bunu deməyə əsas verir ki, Qarabağdakı cinayətlərin nəticəsində hakimiyyəti qəsb etmiş bu şəxs heç vaxt normal davranış nümayiş etdirməyəcək.

**Azərbaycan XİN başçısı Elmar Məmmədyarov son açıqlamalarından birində seçkilərin Qarabağ danışıqlarına təsirini mümkün saymadığını bildirib. E.Mirzəbəyli də 2018-ci ildə keçiriləcək seçkilərin isə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinə bu və ya digər şəkildə təsir göstərəcəyini düşünmür:** "2018-ci ilin Ermənistanda seçki ili kimi dəyərləndirilməsinin də əleyhinəyəm. 2018-ci ildə Sərkisyanın səlahiyyət müddəti başa çatacaq. Parlament yeni konstitusiyaya uyğun olaraq baş naziri və prezidenti seçəcək. Yəni Ermənistanda 2018-ci ildə keçiriləcək seçkilərin taleyi 2017-ci il aprelin 2-də baş tutan parlament seçkilərində həll olunub. Azərbaycanda və Rusiyada isə seçkilərin sakit və ciddi kataklizmlər olmadan keçiriləcəyini düşünürəm. Daha öncə də qeyd etdiyim kimi, Dağlıq Qarabağ münaqişəsinin həlli kontekstində bizim üçün önəmli olan Rusiyada dəyişikliklərin baş verməsidir. Həm də söhbət təkcə hakimiyyət dəyişikliyindən getmir. Son 17 il ərzində Rusiya cəmiyyətinə aşılanmış aşırı aqressiv neoimperialist təfəkkür sağlam, konstruktiv, yaradıcı dünyagörüşü ilə əvəz olunmalıdır. Bu isə çox güman ki, yaxın dövrdə baş verməyəcək".

**Erməni mediası isə yenə də hay-küyü ilə diqqət çəkir. Bu dəfə də iddialar var ki, Rusiya Qarabağın böyük hissəsini Azərbaycanın nəzarətinə qaytaracaq. İstiPress-in məlumatına görə, bu barədə tanınmış erməni analitik, Qarabağda separatçı hərəkatın ilk liderlərindən biri olmuş İqor Muradyan öz məqaləsində Rusiyanın münaqişə həlli üzrə son qərarı barədə bildirib. "Bununla yanaşı, bu plan heç də Qarabağın Ermənistanın siyasi nəzarətinə verilməsini nəzərdə tutmur"**, - deyə İqor Muradyan vurğulayıb.

**O, tezliklə Dağlıq Qarabağ üzrə status-kvonun saxlanmasına xidmət edən Minsk Qrupunun da tarixə qovuşacağını bildirib:** "İş o yerə çatıb ki, Minsk Qrupunun ləğvi və regional "sxodka" ilə əvəzlənməsi barədə təkliflər irəli sürülür. Yəni ABŞ-ın oyundan çıxarılması ilə bağlı Moskvanın növbəti sifarişi yerinə yetirilir",- deyə İqor Muradyan Rusiya prezidenti Vladimir Putinin yanında vətəndaş cəmiyyətinin inkişafı və insan haqları şurasının üzvü, tanınmış ictimai xadim Maksim Şevçenkonun Rusiyanın 1-ci kanalında Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dediyi sözlərə işarə vurub. Şevçenko Qarabağın Azərbaycan torpağı olduğunu və onun taleyinin İran, Türkiyə və Rusiya arasında gedən danışıqlar nəticəsində həll ediləcəyini demişdi. Muradyanın fikrincə, Şevçenko belə fikirləri ictimaiyyətə çatdırmaqla Rusiya rəhbərliyinin, konkret olaraq Putinin sifarişini yerinə yetirir.

Minsk toplantısında bəyanat verən KTMT Şurası münaqişənin həllində Madrid prinsiplərini dəstəklədiyini vurğulamışdı. Arman Melikyan bunu Ermənistanın Qarabağ üzərində nəzarəti itirməsi kimi dəyərləndirib. Onun fikrincə, bu, bir daha göstərir ki, "münaqişənin yeganə həqiqi həlli 8 min kvadratkilometrin Azərbaycana qaytarılmasıdır". Melikayan 8 min kvadrat kilometr dedikdə Dağlıq Qarabağ ətrafındakı torpaqlardan bəhs edir. Ümumiyyətlə, Ermənistan 12 min kvadrat kilometr Azərbaycan ərazisini işğal edib ki, bunun təxminən 4 min kilometri keçmiş Dağlıq Qarabağ ərazisidir. Onun fikrincə, rəsmi Bakı bunun əvəzində ermənilərə yalnız keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində özünü idarə etmə hüququ verəcək: "Bu da yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, yəni istisna olaraq muxtariyyət statusunda olacaq".

Yəni Melikyan demək istəyib ki, hər şey Azərbaycanın istədiyi kimi başa çatacaq. Ancaq S.Sərkisyanın davranışları bütün bunların əksini deyir. Ermənistan hətta o dərəcədə həyasızlıq nümayiş etdirir ki, Dağlıq Qarabağla İran arasında "sərhədlərin" açılması məsələsini dövriyyəyə buraxıb. Bu isə şübhəsiz ki, cəzasızlıq mühitindən irəli gəlir.

Ermənistan ordusu Ağdamda hərbi təlim keçirən saatlarda yayılan digər bir xəbər isə acı gülüş doğurur. ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 6-da Xocavənd rayonu Kuropatkino kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb. Təsəvvür edin, monitorinq keçirən ATƏT missiyası heç nə olmamış kimi davranıb işğalçı ölkənin özgə torpağında hərbi təlim keçirməsi fonunda.

Azərbaycan həm beynəlxalq aləmin ikibaşlı oyunlarından, həm də düşmənin riyakarlığından kifayət qədər məlumatlı olduğu üçün danışıqlara sədaqətini nümayiş etdirməklə yanaşı, hərbi hazırlığını da davam etdirir. Bu istiqamətdə qardaş Türkiyə ilə hərbi əməkdaşlıq istiqamətində yeni imkanlar da araşdırılır. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov dekabrın 6-da Azərbaycanda səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahın Plan, Prinsiplər Baş İdarəsinin rəisi, korpus generalı Yavuz Türkgenci ilə görüşüb. MN-dən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, təlimlərin və treninqlərin sayının artırılması məsələləri, qarşıdakı vəzifələr, birgə fəaliyyət istiqamətləri müzakirə edilib.

Tərəflər hər iki ölkənin Silahlı Qüvvələri arasında əməliyyat və strateji uzlaşmanın əldə olunması, döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, qarşılıqlı əlaqələrin inkişafı və təcrübələrin öyrənilməsi məqsədilə həyata keçirilən fəaliyyətləri yüksək qiymətləndiriblər.

İşğalçının öz havadarlarına arxayın olaraq Azərbaycana və beynəlxalq aləmə meydan oxumasının bir gün tutarlı cavabı olacaq heç şübhəsiz. 2018-ci ildə hakimiyyətinin möhkəmlənməsinə nail olmaq istəyən Sərkisyan Qarabağ məsələsini 2019-a saxlamaq niyyətindədir. Bu mənada status-kvonun qalmasında maraqlıdır. Görünən budur ki, düşmən aprel hadisələrindən dərs almayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 256 (6870) 7 dekabr 2017

# Azərbaycanın İran və Səudiyyə seçimi

## Rəsmi Bakı İranın daha bir "düşməni" ilə yüksək səviyyədə əməkdaşlıq edir; **politoloq:** "Hər iki dövlətlə balanslı siyasət yürüdülür və münasibətlər qurulur"

**Azərbaycan dövlət siyasətində ikitərəfli əməkdaşlığa üstünlük verdiyini daim bəyan edir. Rəsmi Bakı hətta bir-biri ilə gərgin münasibətlərdə olan ölkələrlə də ayrı-ayrılıqda normal münasibətlər qurmaqla da bir neçə nümunə ortaya qoyub.**

Vaxtaşırı Bakının həm İran, həm də İsraillə normal münasibətlər qurması, tərəfləri ciddi şəkildə narazı salacaq hərəkətlərə yol vermədən əlaqələrində olduqca korrekt olması müzakirə mövzularından biridir. Artıq həm İsrail, həm də İran hökumətləri reallıqla barışaraq rəsmi Bakının xarici siyasətində müstəqil olması faktını qəbul ediblər. Son illər Azərbaycanın Səudiyyə Ərəbistanı ilə əməkdaşlığını genişləndirməsi təbii ki, qonşu İranı o qədər də məmnun etmir. Çünki Ər-Riyadla Tehran arasında uzun illərə söykənən gərginliklər mövcuddur. Xüsusilə də ABŞ və Səudiyyə arasındakı anlaşmalar Tehranda sərt reaksiyalar doğurur. Qüds ətrafında vəziyyətin bu münasibətləri daha da gərginləşdirəcəyi şübhə doğurmur. ABŞ və Səudiyyə Ərəbistanının Qüds barədə qurduğu planın detalları məlum olub. (axar.az) Plana əsasən, Qüds İsrailin yeni paytaxtı olacaq, Fələstin isə yeni paytaxt olaraq Əbu Dis şəhərini seçəcək. 1948-ci ildə baş tutan Ərəb-İsrail müharibəsi zamanı İsraili tərk edən fələstinlilərin geri qayıtmaq haqları da əllərindən alınacaq. Planın əsas müəlliflərindən birinin ABŞ prezidenti Donald Trampın baş müşaviri Cerad Kuşner olduğu bildirilib. İddialara əsasən, Kuşner Ər-Riyad səfəri zamanı vəliəhd Məhəmməd bin Salmanı da razı salmağı bacarıb. Vəliəhddən sonra Kuşnerin Fələstin



rəhbəri Mahmud Abbasa da bu planı təklif etdiyi qeyd olunub. Qeyd edək ki, Fələstin mətbuatı ABŞ prezidentinin ötən gün Mahmud Abbasla telefon danışığı zamanı ABŞ səfirliyinin Tel-Əvivdən Qüdsə köçürüləcəyini açıqladığını iddia edib. Belə olan halda Tehranın qıcıqlı reaksiyalarını müşahidə etmək mümkündür.

Yeri gəlmişkən, bu günlərdə Bakıda Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında ikitərəfli əlaqələrin inkişafı məsələləri barədə fikir mübadiləsi aparılıb. Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Rasim Rzayevin bu ölkənin Şura Məclisinin Səudiyyə Ərəbistanı-Azərbaycan parlamentlərarası dostluq komitəsinin sədri Fayiz Əl-Şəhri və komitənin üzvləri ilə görüşündə qanunverici orqanlarımız arasında əməkdaşlıqdan da ətraflı söhbət açılıb. Bütün bunlar yəqin ki, İranda da diqqətlə izlənilir. Ancaq hesab olunur ki, Azərbaycan və İran arasındakı münasibətlərin yeni mərhələyə adlaması, dəmir yolu çəkilişi ilə bağlı nəhəng layihə, həmçinin Azərbaycan, Rusiya, İran üçbucağında əlaqələrin inkişafı Tehranın təsirlərini neytrallaşdıracaq.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a dedi ki, İran və Səudiyyə Ərəbistanı arasında münasibətlər İslam tarixi boyunca o qədər də müsbət olmayıb:** "Əsasən də buna səbəb kimi sünni və şiə cərəyanlarının və müxtəlif məzhəblərin təsiridir. İranda Şah rejimi dövründə münasibətlər normal olub, sonradan, yəni İslam inqilabından sonra yenə münasibətlərdə soyuqluq yaranıb və bu proses 1988-ci ilə qədər davam edib. 1988 və 2016-cı ildə diplomatik münasibətlər ümumiyyətlə kəsilib. Ərəb baharından sonra məlum cəza kimi şiələrin qətli və bu kimi amillər yenə iki dövlət arasında münasibətləri dəyişib və bu gün demək olar ki, yox dərəcəsindədir".

**A.Nağıyev bildirdi ki, Azərbaycan dövləti hər iki ölkə ilə diplomatik münasibətləri olan və siyasi, iqtisadi, mədəni ilə ticarət əlaqələri yaradıb:** ""Əsrin müqaviləsi" imzalanan zaman Səudiyyə Ərəbistanı Krallığı da bu müqavilədə təmsil olunub, ölkəmizdə həyata keçirilən bir sıra layihələrdə kreditor kimi çıxış edib. Bundan başqa, Ermənistanla diplomatik münasibəti olmayan çox az dövlətlərdən biridir. 1999-cu ilin iyun ayından Səudiyyə Ərəbistanı Krallığının Azərbaycanda səfirliyi fəaliyyət göstərir". **Politoloq İranla da normal münasibətlərimiz mövcud olduğunu qeyd etdi:** "Unutmaq lazım deyil ki, hazırda İranda 25 milyondan çox azərbaycanlı yaşayır, bu ölkə ilə 765 km. uzunluğunda sərhədlərimiz var. Azərbaycanla İran arasında qarşılıqlı əlaqələrimiz inkişaf edir. Son vaxtlar həm ikitərəfli, həm də üçtərəfli platformalarda təmsil edilirik. Bu, istər loqistika, istər müəyyən nəqliyyat infrastruktur layihələrin reallaşmasında özünü büruzə verir. Azərbaycan multikultural dəyərləri olan, tolerantlığı təbliğ edən və qoruyan bir dövlət olaraq hər iki dövlətlə müsbət istiqamətdə əlaqələr qurub. Təbii ki, xarici siyasətdə əsas dostluq deyil, ümumi siyasi, iqtisadi və digər maraqlardır. Buna görə də hər iki dövlətlə balanslı siyasət yürüdülür və münasibətlər qurulur. Zənnimcə, bu paralel siyasət daim aparılacaq".

❑ **Cavid TURAN**

# BOK Rusiya idmanının "belini" qırdı

## Amma futbol üzrə dünya çempionatının Rusiyadan alınacağı inandırıcı deyil

## **İdman eksperti:** "ABŞ da anlayır ki, DÇ-ni Rusiyanın əlindən almaq mümkün deyil".

**Rusiyada yenidən dopinq qalmaqalı yaşanır. Belə ki, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi İsveçrənin Lozanna şəhərində keçirilən iclasında dopinq qalmaqalı ilə bağlı Rusiya yığmasının 2018-ci ildə Cənubi Koreyanın Pxönçan şəhərində keçiriləcək Qış Olimpiya Oyunlarında iştirakına qadağa qoyub. BOK-un saytında yerləşdirilmiş məlumatda qeyd olunub ki, oyunlarda Rusiya bayrağının dalğalandırılmasına və Rusiya himninin səsləndirilməsinə də icazə verilməyəcək. Həmçinin bildirilir ki, oyunlarda olimpiya bayrağı altında yalnız "təmiz" (dopinq qalmaqalında adları hallanmayan) rusiyalı idmançılar iştirak edə bilərlər. Qərara əsasən, Rusiya baş nazirinin müavini Vitali Mutko olimpiadada iştirakdan ömürlük məhrum olunub.**




Analoji sanksiyalar keçmiş idman naziri Yuriy Naqornıxa da şamil olunub. 2014-cü ildə Soçi şəhərində keçirilən Olimpiya və Paraolimpiya Oyunlarının Təşkilat Komitəsinə rəhbərlik etmiş Dmitri Çernişenko 2022-ci ildə Pekində keçiriləcək Olimpiya Oyunlarının əlaqələndirmə komissiyasının tərkibindən çıxarılıb.

Eyni zamanda Rusiya bütün bunlara görə böyük məbləğdə cərimələnib. Belə ki, Rusiya anti-dopinq qaydalarının pozulması hallarının araşdırılmasına çəkilmiş xərclərin ödənilməsi üçün Müstəqil Antidopinq Komissiyasına (ITA) 15 milyon dollar ödəməlidir. Onu da qeyd edək ki, Rusiya idmançılarının qadağan olunmuş maddələrdən istifadə etmələri ilə bağlı ittihamlar ötən il də qalmaqal yaratmışdı.

2016-cı ilin iyun ayında Rusiyada idmançıları testdən keçirən antidopinq qurumunun rəsmilərinə maneələr törətmiş və buna görə onlar təhlükəsizlik xidməti tərəfindən hədələnmişdi. Bu barədə məlumat Dopinq Əleyhinə Beynəlxalq Agentliyin (WADA) hesabatında yer almışdı.

WADA-nın bəyanatı Rusiya idmançılarının 2016-cı il Rio Olimpiadasında iştirakının müəyyən edilməsindən iki gün əvvəl səslənmişdi. Nəticədə isə dövlət himayəsi ilə dopinqin istifadəsində ittiham edilən Rusiya idmançılarına beynəlxalq yarışlarda çıxış etmək qadağan edilmişdi. 2016-cı ilin mart ayında isə tennis ulduzu Maria Şarapovanın ardınca daha 3 rusiyalı idmançının qanında qadağan olunmuş meldonit maddəsi aşkar edilmişdi. Bunlar voleybol millisinin üzvü Aleksandr Markin, 5 qat dünya çempionu xizəksürən (Konki) Pavel Kulijnikov və qısa məsafəyə qaçan xizəkçi (Olimpia çempionu) Semyon Elistratov idi.

Həmçinin fiqurlu konki sürən Ekatrina Bobrova və onun tərəfdaşı Dimitri Solovyev buna görə Bostonda keçiriləcək dünya çempionatından xaric edilmişdilər. Bütün bunların fonunda bir məsələ də var ki, 2018-ci ildə futbol üzrə Dünya Çempionatı Rusiyada keçiriləcək. Ehtimallar var ki, dünya çempionatının Rusiyada keçirilməsini Avropada və Amerikada istəməyən qüvvələr var. Bu, Ukrayna hadisələrindən sonra Rusiyaya tətbiq edilən sanksiyalarla əlaqələndirilir. Baş verən hadisələr Dünya Çempionatının Rusiyada keçirilməməsinə gətirib çıxara bilərmi?

**Politoloq Mübariz Əhmədoğlu "Yeni Müsavat"a bildirib ki, Amerikanın hazırda Rusiyaya qarşı münasibəti son dərəcə gərgin həddədir:** "Amerika Rusiyaya qarşı total müharibə vəziyyətindədir. Bir o qalıb ki, silahlar işə düşsün. Silahlardan başqa hər bir qüvvələr işə salınıb. Putinin köməkçisi Peskov etiraf etdi ki, Amerika Rusiyanın biznesini Putinin əleyhinə çevirib. Peskovun bu etirafı, Rusiyanın daxilində də Amerikanın təzyiqinin çox güclü olduğunun göstəricisidir. Ona görə də hesab edirəm ki, Putin vəziyyəti yaxşı anlayır və bu səbəbdən də özünün prezidentliyə namizədliyini elan etmir. Yəqin ki, Putin qarşıdan gələn prezident seçkilərində iştirak etməməyə çalışacaq. Ola bilər ki, Şoyqunun namizədliyini dəstəkləsin. Putin başa düşür ki, Amerikanın Rusiyaya qarşı təzyiqləri ilk olaraq Putinin şəxsinə görədir. Artıq Rusiyanın olimpiadada iştirakı ləğv olundu və 2018-ci ildə futbol çempionatının orada keçirilməsi də ləğv edilə bilər. Bundan da əlavə bizim ağlımıza gələn və gəlməyən nə qədər sanksiyalar varsa, hamısı Amerika tərəfindən tətbiq edilə bilər. Putin vəziyyətdən yalnız Şoyqunu prezident etməklə çıxa bilər. Putinin fəaliyyəti əlavə gərginliklər də yaradır. Siyasətdir, hərəkət etdikcə təkcə yaxşı nəticələr ortaya çıxmır, pis məqamlar da olur. Putin prezident seçkilərindən imtina etməklə çalışacaq ki, siyasətinin gətirdiyi gərginliklər aradan qaldırılsın. Putin prezident olaraq qalarsa, orada Dünya Çempionatı keçirilməyəcək".

**İdman jurnalisti Natiq Muxtarlı isə bildirib ki, Beynəlxalq Olimpiya Komitəsinin qərarı DÇ-2018-in təşkilatçılıq hüququnun Rusiyadan alınmasına heç bir təsir göstərməyəcək:** "Dünya çempionatı olimpiadadan da qlobal turnirdir. Bu yarışa hazırlaşmaq üçün hətta on illər lazım olur. Olimpiada bir şəhərdə keçirilirsə, dünya çempionatı 11-12 şəhəri əhatə edir. ABŞ DÇ-2018-in təşkilatçılıq hüququnun Rusiyadan alınmasına cəhd göstərdi. FİFA-da aparılan korrupsiya əməliyyatı da məhz bu məqsədə xidmət edirdi. Həmin vaxt İngiltərə və Almaniya mundialı qəbul etməyə hazır olduqlarını bildirmişdilər. Onların hazır infrastrukturu olduğu üçün həmin vaxt təşkilat hüququnu Rusiyadan almaq olardı. Ancaq Rusiya o mübarizədən qalib ayrıldı. İndi isə bunu etmək mümkünsüzdür. Mundialın startına illər yox, aylar qalıb, final mərhələsinin püşkü atılıb. Rusiyaya gələcək komandalar yerləşəcəkləri bazaları seçiblər, biletlərin də əksər hissəsi satılıb. Artıq ABŞ da anlayır ki, DÇ-ni Rusiyanın əlindən almaq mümkün deyil".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 256 (6870) 7 dekabr 2017

# İki güclü gürcü lider - Saakaşvili və Stalin

## Elxan Şahinoğlu: "Saakaşvili həmyerlisinin "qələbəsini" təkrarlamaq istəyir"

**Son üç ayda Ukraynanın siyasi arenasını çalxalandıran Gürcüstanın sabiq prezidenti, Odessa vilayətinin keçmiş qubernatoru Mixail Saakaşvili dünyanın diqqət mərkəzindədir. Xüsusilə iki gün öncə onun həbs edilib, iki saatdan sonra azadlığa buraxılması bu şəxsin populyarlığını daha da artırdı.**

Görünən odur ki, sabiq prezident Gürcüstandan sonra ikinci bir ölkədə inqilab etmək üçün həyatını riskə atır, hədəfindən bir addım da geri çəkilmir. Yad bir ölkə uğrunda həbsin bir addımlığında olduğunu bilə-bilə, bu təhlükəni belə gözaltına alır.

Onun bu iradəsi Saakaşvilinin həmyerlisi, SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuş İosif Stalinlə müqayisəsinə də səbəb olub. Mişanın Stalinlə bəzi ortaq cəhətləri, oxşar xüsusiyyətləri meydana çıxsa da, çoxsaylı fərqləri üzə çıxıb. Bu baxımdan sabiq prezidentin SSRİ-nin keçmiş rəhbəri ilə müqayisənin düzgün olmadığını deyənlər də var, bunun əksini dilə gətirənlər də.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu gürcülərin son 100 ildə dünya siyasətinə verdikləri iki lideri bu cür müqayisə etdi:** "Bu iki şəxs arasında yeganə oxşarlıq hər ikisinin hakimiyyətə can atması və bu yolda əldə olan bütün imkanlardan istifadə etmələridir. Bununla da ikisi arasında oxşarlıq bitir. Stalin kommunist diktator idi, insanları kütləvi sürətdə məhv edirdi. Saakaşvili anti-kommunistdir, liberal dəyərləri bölüşür, sosializmin tərəfdarı deyil, özəl mülkiyyətin inkişafına üstünlük verir. Stalinin ali savadı yox idi, gəncliyində quldur idi, Bakıda imkanlı şəxsləri soyub, pulunu bolşeviklərin lideri Vladimir Leninə göndərirdi. Saakaşvilinin yüksək ali savadı var, hüquqşünasdır, təhsilinin bir hissəsini Amerikada alıb. Stalinlə Saakaşvili arasında hədəflər də fərqli olub. Stalin böyük bir imperiyaya başçılıq edib, ölkələri işğal edib, Amerikaya meydan sulayıb. Saakaşvilinin hədəfi isə kiçik olub. O, kiçik Gürcüstanın prezidenti olub, indi eyni iddianı Ukraynada həyata keçirmək istəyir. Ancaq inanmıram ki, ukraynalılar gürcünü özlərinə lider və ya prezident seçsinlər. Mixail Saakaşvilinin Gürcüstandakı fəaliyyətini təqdir edirdim. O, Gürcüstanda vacib islahatlar həyata keçirdi, rüşvətxorluğun miqyasını xeyli azaltdı, iqtisadiyyatı canlandırdı, sosial sahədə yeniliklər gətirdi. Ancaq onun Ukraynadakı fəaliyyətinin quruculuqla az əlaqəsi var. O, Ukrayna prezidenti Petr Poroşenkoya qarşı səlib yürüşü elan edib. Bu onun hüququdur, ancaq o, Poroşenkoya qarşı müxalifətçilik edərkən əndazəni aşır, faktiki, insanları qiyama çağırır. Ukraynada ikinci Maydan yeniliklərə yol açsa da, Krımın və Donbasın itkisi ilə nəticələndi. Üçüncü Maydan Ukraynanı xəritədən silə bilər. Ona görə Saakaşvili inqilaba çağırarkən, faktiki, Ukraynanın dövlət quruluşuna təhlükə yaradır.





Poroşenkonun ən böyük səhvi Saakaşvilini vətəndaşlıqdan məhrum etmək idi. Poroşenko düşünürdü ki, vətəndaşlığı olmayan Saakaşvili Ukraynaya geri qayıtmayacaq. Ancaq o, qayıtdı və sərhədçilər bunun qarşısını ala bilmədilər. Saakaşvilini həbs etmək istədilər, hakimiyyət yenə ona uduzdu. Bu, Poroşenkonun ikinci böyük uğursuzluğudur. Ancaq Saakaşvili artıq Ukraynanın hüquq sisteminə təhdiddir. O, könüllü şəkildə istintaqa ifadə verməyə getməsə, Ukraynada vəziyyət daha da gərginləşəcək. Hadisələrin bu istiqamətdə inkişafı Rusiyanın maraqlarına xidmət edir. Poroşenko-Saakaşvili qovğasının qızışması Kremlin xeyrinədir. Ukraynanın daxili işlər naziri Arsen Avakov da bu qovğadan yararlanmağa çalışır. O, prezident seçkisində Poroşenkonu dəstəkləməyə də bilər. Buna görə də Saakaşvili ilə mübarizədə Poroşenkonun reytinqinin aşağı düşməsi sanki Avakovun da maraqlarına cavab verir. Poroşenko-Saakaşvili qovğası 1920-ci illərdəki Trotski-Stalin mübarizəsinə bənzəyir. Lenin 1924-cü ildə öldükdən sonra hakimiyyət uğrunda mübarizədə Stalin Trotskini qabaqladı və illər sonra ikincinin Meksikada qətlinə nail oldu. Görünür, bu mənada Saakaşvili həmyerlisinin "qələbəsini" təkrarlamaq istəyir".

**Politoloq Saakaşvilinin tarixdə necə qalacağına da toxundu:** "Mixail Saakaşvili Gürcüstandakı islahatları ilə yadda qalacaq. Ancaq onun Ukraynadakı fəaliyyətinin tarix kitablarına müsbət mənada düşəcəyinə inanmıram. Mixail Saakaşvili Ukraynada suyu bulandırır. Hətta onun Azərbaycandakı ən böyük və sadiq dəstəkçiləri belə Saakaşvilinin Ukraynadakı fəaliyyətinə tənqidi yanaşırlar. Stalin isə tarixdə qəddar diktator kimi qalıb. Stalin və ya Hitler - elə böyük fərq yoxdur. Bolşeviklər çar Rusiyasına qarşı mübarizə apardıqda Stalin bir müddət xarici ölkələrdə yaşayıb. Leninə pul daşıyıb. Bakıda neçə illər inqilabi işlə məşğul olub. Ancaq SSRİ-də diktaturanı gücləndirdikdən sonra xarici ölkələrə bir neçə səfəri ilə yadda qalıb. Tehran (İran) və Podsdam (Almaniya) konfranslarında iştirak edib, vəssalam. Stalindən fərqli olaraq Saakaşvili mühacir həyata və mühacir siyasətə üstünlük verir".

❑ **Cavanşir ABBASLI**

# Rza Zərrabın məhkəməsində şok məlumatlar

## Türmə nəzarətçisinə verilən 45 min dollar, narkotikdən istifadə və azadlığa çıxmaq üçün danışılan yalanlar



**Nyu-Yorkda həbsdə olan Türkiyənin Xalq Bankının keçmiş müdir köməkçisi Mehmet Hakan Atillanın ittiham olunacağı məhkəmədə şahidlik edən Rza Zərrabın durumunda dəyişiklik ola bilər. Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, prokurorluqla işbirliyinə görə fiziki bir təhlükə olarsa, R.Zərrabı "Şahidi Qoruma Proqramı" çərçivəsində "özü, ailəsi və sevdiklərinə yeni pasport verilə biləcəyi və başqa bir yerə köçə biləcəkləri ortaya çıxıb. Bəs dünənki prosesdə R.Zərrabın "çarpaz sorğusunda" nələr yaşandı? Detallara nəzər salaq.**

R.Zərrab şəxsinə qarşı yönləndirilən 7 ittihamı da qəbul edərək şahidlik etməyi qəbul edib. Onun prokurorluqla etdiyi iş birliyi anlaşmasının detalları isə məhkəmə sənədlərində yer alıb. Zərrabın cinayətlərinin və bu cinayətlər üçün istənilən həbs cəzalarının bir-bir sıralandığı anlaşmada Zərrabın cinayətlərinə qarşılıq 130 il həbs cəzası verilməli idi.

Anlaşmaya bağlı qaldığı halda ifadəsindəki heç bir məlumat Zərraba qarşı istifadə olunmayacaq. Məhkəmə tərəfindən müəyyən edilən zərəri yenə məhkəmənin müəyyən etdiyi plan əsasında ödəyəcəyi qeyd olunan anlaşmada Zərrab yol verdiyi cunayətlərdən əldə etdiyi bütün gəlir və mal varlıqları üzərindəki haqqını da itirəcək.

Anlaşmada həmçinin qeyd olunub ki, Zərrab özünün və başqalarının qanunsuz əməllərini tamamını dürüst bir şəkildə açıqlayacaq, FBİ və digər bütün qurumlarla işbirliyinə girəcək və iştirakı tələb olunan bütün iclaslarda hazır olacaq. Bundan başqa, R.Zərrab ondan tələb edilən bütün sənəd, qeyd və dəlilləri də prokurorluqla paylaşacaq. Həbsdəki iş adamı jüri üzvləri qarşısında düzgün ifadə verəcəyi və bundan sonra heç bir şəkildə cinayətə yol verməyəcəyini qeyd edərək, işbirliyi anlaşmasına bağlı qaldığı təqdirdə ifadəsindəki heç bir məlumatın ona qarşı istifadə olunmayacağı vədini də aldı.

Anlaşmada "Zərrabın prokurorluqla bağladığı dürüst işbirliyinə görə özü, ailəsi və sevdiklərinə şiddət, güc və təhdid tətbiq oluna bilər. İşbirliyinə görə, fiziki bir zərər, təhlükə ehtimalı qüvvəyə minərsə, Zərrabın yazılı tələbi əsasında özünün, ailəsinin və sevdiklərinin təhlükəsizliyini təmin etmək üçün məqbul və lazımi addımlar atılacaq. Bu addımlar "Şahid Qoruma Proqramı"nın tərkib hissəsinə daxildir. Təsdiqləndiyi halda Zərrabın ailəsi və sevdiklərinə yeni pasport, şəxsiyyət vəsiqələri verilə, başqa bir yerə yerləşdirilə bilər.

Prokurorluq Zərraba nə qədər cəza alacağı ilə bağlı hər hansı söz verməyib və cəzası məhkəmə tərəfindən müəyyən ediləcək. Bu da anlaşmada öz əksini tapıb. Iran əsilli iş adamı anlaşmanın şərtlərini yerinə yetirərsə, prokurorluğun cəza endirimi üçün məhkəməyə "5K1.1" adlanan bir məktub təqdim edəcək. Zərrab yanlış və ya əksik ifadə verərsə, anlaşma şərtlərini pozarsa, təkrar ittiham olunacaq. ABŞ vətəndaşı olmadığı üçün onun deportasiya edilmə ehtimalı da anlaşmada öz əksini tapıb.

Zərrabın çarpaz sorğusunu indiyə qədər Atillanın vəkillərindən olan Keti Fleminq aparıb.

Fleminqin sualları "Zərrabın ABŞ yetkililəri ilə işbirliyi müddəti ", "Hakan Atilla ilə Zərrab arasındakı münasibət" və "Zərrabın payladığını açıqladığı rüşvətlər" başlığı altında qruplaşdırılıb.

Fleminq çarpaz sorğu zamanı Zərraba həm Atilla ilə münasibətlərinə yönəlik, həm də keçmişdə və ABŞ-da türmədə olduğu zaman etdikləri ilə bağlı suallar yönəldib. Zərrab Atilla ilə aralarında heç bir zaman rüşvət münasibəti olmadığını və hətta telefonunda onun nömrəsinin belə olmadığını söyləyib.

Zərrab Atilla ilə bir-birilərindən xoşları gəlmədiyini deyərək, Atilladan "təkərə çomaq soxduğu" üçün Xalq Bankın həmin vaxtkı rəhbəri Süleyman Aslana şikayət etdiyini də vurğulayıb.

Fleminq Zərraba keçmişdəki bəzi davranışları və rüşvət verdiyi iddiaları ilə bağlı suallar da ünvanlayıb. Bu sualların məqsədi isə Zərrabı etibarsızlaşdıraraq, jüri üzvlərinin gözündə dediyi sözlərin və verdiyi ifadələrin inandırıcılığını azaltmaqdan ibarət olub.

Fleminq eyni zamanda ondan prokurorluğun istəyi ilə istintaqla əlaqəsi ola biləcək şəxslərə tələ qurub-qurmadığını soruşub. Zərrab isə bunu rədd edib, ancaq anlaşma çərçivəsində "belə bir tələb gələrsə, onu yerinə yetirmək məcburiyyətində olduğunu" deyib.

Fleminq Zərrabın məhkəmədəki ifadəsi ilə FBİ-yə (Federal Təhlükəsizlik Bürosu) verdiyi ifadənin bir-birindən fərqli olduğuna diqqət çəkib.

Zərrab çarpaz sorğu-sualda Fleminqin suallarına da qaçaraq və qeyri-dəqiq cavablar verib. Buna görə də Fleminq Zərrabdan suallarına "bəli" və ya "xeyr" kimi cavablar verməsini istəyib. Fleminqin "İşbirliyi anlaşmana görə, məhkəmə prosesləri yekunlaşandan sonra girov qarşılığında azadlığa çıxa biləcəyin düzdürmü?" sualına Zərrab "Bu variantım hər zaman var" deyə cavab verib. Zərrab eyni zamanda 26 noyabrda işbirliyi anlaşması imzalayandan sonra prokurorlarla ən azı 35 dəfə görüşməsi ilə bağlı sualı da qeyri-dəqiq cavablandırıb: "Sayını bilmirəm, amma çox görüşmüşəm".

İrana yaşam tərzinə görə getmək istəmədiyini deyən Zərrab edam cəzasına məhkum edilən Babək Zəncaninin hesabına isə digər iranlılar kimi pul göndərdiyini, ancaq ortaq olmadıqlarını vurğulayıb. Zəncaninin Qanadan özəl təyyarə ilə gələn 1.5 ton qızılı şirkətinə satmaq üzrə göndərdiyini təsdiqləyən Zərrab İranla bağlı narahatçılığının isə Zəncani ilə bağlı olmadığını vurğulayıb. Zərrab çarpaz sorğu-sualda "Atilla bəyin məndən heç bir şəkildə rüşvət istəmədiyi düzdür. Məndən heç bir şəkildə bir pul tələbi olmayıb" deyib. O, eyni zamanda "Atilla işimizə daş qoydu" şəklindəki ifadəsinin də doğru olduğunu vurğulayıb.

Flemminq Zərrabın türmədə sintetik narkotik çəkərkən yaxalandığını da deyib. Buna cavab olaraq Zərrab "Bunun cinayət olub-olmadığını bilmirəm. Türmədə yasaq ola bilər" dedi. Zərrab ABŞ həbsxanasında saxlanarkən bir nəzarətçiyə 45 min dollar rüşvət verdiyini, pulun türk vəkillər tərəfindən çatdırıldığını açıqlayıb. Zərrabın nəzarətçinin telefonu vasitəsilə qızı ilə görüntülü danışdığını, vəkilləri ilə ünsiyyət qurduğunu deyib. Bundan başqa, Zərraba spirtli içki və soyuqdəymə dərmanı da gətirilib.

Zərrab cinayət işinə mövzu olan cinayətlərdən qazandığı pulla bağlı suala isə "100 milyon dollar da ola bilər, 150 milyon dollar da" deyə qeyri-dəqiq cavab verib. Etiraf anlaşması çərçivəsində prokurorluq Zərrabın başqaları üçün əxlaqsız qadın təmin etmə cinayətinin üstündən keçdi.

### "Həbsdən çıxmaq üçün yalan danışmağa hazıram"

R.Zərrabın bundan əvvəlki məhkəmə prosesində hakim Bermana məktub verən H.Atillanın vəkilləri Zərrabın Əhəd adlı bir nəfərə "Həbsdən çıxmaq üçün yalan danışmağa hazıram" dediyini çatdırmışdı. Müdafiə vəkilləri tərəfindən yazılan məktubda "Zərrab daha az cəza almaq üçün bir ifadə uydurmaq məsələsində olduqca istəklidir" sözləri qeyd olunmuşdu.

15 sentyabr 2016-cı ildə Zərrab ilə Əhəd adlı bir şəxsin telefon söhbətindən bəhs edilən məktubsa ciddi əhəmiyyət daşıyır. Onun məhkəmə prosesinin istiqamətini dəyişdirə biləcəyi ehtimalları olduqca yüksəkdir. Dünənki məhkəmə prosesinin açılışında çıxış edən hakim Riçard Berman isə həbsdəki səs yazılarının yayılacağını açıqlayıb. Bu səs yazıları Zərrabın nə dərəcədə etibarlı olmasının ölçülməsi üçün istifadə olunacaq.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 256 (6870) 7 dekabr 2017

**Azərbaycan dini mühitində zərərli tendensiya müşahidə olunmağa başlayıb. Doğrudur, hələlik mövzu yalnız sosial şəbəkələrdə (amma qızğın şəkildə - K.R.) müzakirə olunur, necə deyərlər, virtualdan reala keçməyib. Ancaq prosesin özü çox təhlükəlidir və daha təhlükəlisi odur ki, bu zərərli tendensiyaya hansısa görünməz əllər dəstək verir. Bu barədə bir qədər sonra...**

# Azərbaycanda yeni dini bölücülük təhlükəsi

## Və ya yeni radikal şiə düşüncəsi ölkədə necə və hansı arqumentlə yayılır?

Məsələ ondadır ki, Yaxın Şərqdə son 6 ildə dini-məzhəbi nifrətə köklənmiş terror müharibəsi bitməyə doğru getdiyi, qatı, inkarçı düşüncənin zərərliliyi fikrini hər kəsin qəbul etməyə başladığı bir zamanda Azərbaycanda ənənəvi şiə məzhəbi ardıcılları arasında təkfir düşüncəsi yayılmağa başlayıb.

Məlumdur ki, İslam dini ardıcılları arasında təkfirçi düşüncənin yaşı çox qədimə gedir. Öz inancını *(daha çox eyni dində olanlara aiddir, nəinki başqa dinlərə qarşı - K.R.)* daha doğru və haqq bilən, fərqli düşünənləri "dindən çıxmış", "yolunu azmış", "küfrə düşmüş" kimi görən və buna görə də onları öldürməyə icazə verəcək qədər irəliyə gedən bu düşüncə əsrlər boyu yüz minlərlə günahsız insanın həyatına son qoyub, müsəlman aləmini inkişafdan saxlayıb. Son 6 ildə Yaxın Şərqdə bunun acı nəticələrini gördük.

Məlumdur ki, şiə cərəyanı daxilində ənənəvi, digər məzhəblərə loyal qruplarla yanaşı, daha sərt, hətta başqa məzhəbləri qəbul etməyən, eləcə də İslamın ilk illərində baş vermiş hadisədən çıxış edərək bəzi səhabələri lənətləyən, bunu az qalan inancın bir hissəsi olaraq təqdim edən, başyarma da daxil olmaqla, bir çox bu gün qatı hesab olunacaq hərəkətləri leqallaşdıran marginal qruplar olub və bu gün də var. Ancaq bu qruplar xüsusən də Azərbaycan kimi ölkələrdə azlıqda olduqları üçün səsləri o qədər də eşidilməyib. Xüsusən də son illərdə Yaxın Şərqdə baş verənlərdən sonra müsəlman ümməti daxilində sünni və şiələr arasında təkfirçi, qarşı görüşlərə hörmətlə yanaşma çağırışlar dəstək qazandığı üçün bu cür düşüncənin davamçıları nəzərə çarpmırdı.

Ancaq bu düşüncə hər zaman vardı və davam edir. Artıq uzun illərdir ki, küveytli din xadimi, səhabə haqqında təhqiramiz fikirlər işlədən Yasir əl-Həbib Londondan yayınlanan "Fadak" TV kanalı vasitəsilə, o cümlədən ABŞ-ın Kaliforniya ştatında yaşayan Məhəmməd Hidayəti "Salam" telekanalı vasitəsilə cəfərilik məzhəbi daxilində sərt fikirləri yayır.



İndi isə bu fikirlər Azərbaycanda tirajlanır. Sosial şəbəkələrdə mülayim, barışcıl, digər məzhəblərlə anlaşmaya meyilli qruplarla qatı məzhəbçilər arasında sözlü "duellər" baş verir. Ancaq qəribədir ki, Azərbaycanda bu qarşıdurma İran tərəfdarlığı ittihamlarının kölgəsində gedir. Məsələ ondadır ki, hazırkı İran İslam hakimiyyəti, o cümlədən İraq şiələrinin lideri Ayətullah Sistani müsəlman vəhdəti, digər məzhəblərə, onların müqəddəslərinə qarşı hörmətlə yanaşma tövsiyə edir, məzhəb ikitirəliyi salınmasına qarşı fətvalar veriblər. Lakin həm İranda, həm də İraqda və eləcə də digər ölkələrdə olan ifratçı şiə icmaları və onların dini liderləri bu səbəbə görə adıçəkilən üləmanı "şiəliyin əsaslarını sarsıtmaqda", "şiə əqidəsindən kənara çıxmaqda" ittiham edir. Yuxarıda adıçəkilən kanallarda bunun onlarla örnəyi var. Söhbət konkret olaraq Peyğəmbərin (s.ə.s) həyat yoldaşı, eləcə də ilk xəlifələrə münasibətdən gedir. Hansı ki, bu mövzu uzun illər düşmənçilik və bölücülük səbəbi olub.

Əlbəttə, bu mövzu Azərbaycanda yaranmadığı üçün Azərbaycanda onun həll olunması da mümkün deyil. Amma məsələnin pis tərəfi odur ki, indi bu mövzunu ortaya atıb aranı qızışdıranlar var. Özü də münaqişə bu dəfə məzhəblər arasında deyil, bir məzhəbin daxilində gedir. Bu isə Azərbaycan üçün təhlükəlidir. Çünki Azərbaycanda bu günə qədər din və məzhəb ayrılığı mövzuları nifrət səbəbi olmayıb. İndi baş verən bu proses isə məqsədli şəkildə "İran tərəfdarları və əleyhdarları" arasında mübarizə kimi təqdim olunur. Çünki aydın məsələdir ki, Azərbaycan ictimai rəyində İrana qarşı, xüsusən də İran üləmasına qarşı soyuq münasibət var, İran təsirinin olması təhlükəli tendensiya kimi qəbul olunur. Bu səbəbdən də qarşı qrup məhz mülayim xətti İrana bağlamaqla mövzunu dini motivdən ayırıb ona geopolitik və siyasi çalar qatmağa çalışır. Ehtimal ki, hakimiyyətdə bilərəkdən və ya bilmədən buna gedən var.

Halbuki məsələ siyasi deyil, İslam məzhəbləri arasında münasibətlərdən və sərt xətt tərəfdarları ilə daha yumşaq, barışdırıcı xətt arasında qarşıdurmadan gedir. Bu mövzunun Azərbaycana ayaq açması din sahəsində düşmənçilik və nifrəti dərinləşdirəcək. Çünki qatı şiə qrupları həm daxildə, həm də "xaricə", yeni digər məzhəblərə qarşı münasibətdə sərt görüşün tərəfdarıdırlar.

Hələlik mövzu sosial şəbəkələrdə mübahisə və müzakirələr, qarşılıqlı ittihamlar çərçivəsindən çıxmır. Tərəflər hədislər, dini rəvayətlər, tarixi hadisələri təftiş edərək bir-birinə qarşı arqument olaraq istifadə edir. Amma sabah bu prosesin daha sərt və amansız qarşıdurmaya çevrilməyəcəyinə də kimsə təminat verə bilməz.

❑ **Kənan RÖVŞƏNOĞLU**

## Terminologiya Komissiyası bir çox terminin qarşılığını müəyyən edib




**Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının qəbul etdiyi bəzi terminlər məlum olub. APA-nın "Terminologiya məsələləri" jurnalına istinadən verdiyi xəbərə görə, Komissiya ingilis dilində 45-dən çox terminin Azərbaycan dilində qarşılığını müəyyən edib.**

Terminologiya Komissiyasının müvafiq qərarı ilə "Aerial collision" - "Havada toqquşma", "Aerial dusting" - "Havadan tozlandırma", "Aerial work" - "Aviasiya işləri", "Airline" - "Aviaşirkət", "Air carrier" - "Aviadaşıyıcı", "Airworthy" - "Uçuşa yararlı", "Airworthiness" - "Uçuşa yararlılıq", "Arrival area" - "Gəliş ərazisi", "Arrival point" - "Gəliş məntəqəsi", "Confidence interval" - "Etibarlılıq intervalı", "Confidence limit" - "Etibarlılıq limiti", "Crest factor" - "Amplitud əmsalı", "Critical wing" - "Kritik qanad", "Crossbar" - "İşıq üfüqü", "Cross-wind" - "Yan küləyi", "Customs airport" - "Gömrük aeroportu", "Customs authorities"- "Gömrük orqanı", "Disc area" - "Disk sahəsi", "Disc loading" - "Disk yüklənməsi", "Discrete code" - "Diskret kod", "Discrete frequency" - "Diskret tezlik", "Drift" - "Dreyf", "Drift angle" - "Dreyf bucağı", "Fixed wings" - "Hərəkətsiz qanadlar" kimi müəyyənləşdirilib.

Eyni zamanda, "Aileron" - "Eleron", "Air bleed" - "Havanın sovrulması", "Air-brake" - "Hava əyləci", "Airframe" - "Planer", "Airframe noise" - "Planerin küyü", "Airport charge" - "Aeroport rüsumu", "Airport capacity" - "Aeroport tutumu", "Air taxi" - "Aerotaksi", "Air traffic" - "Havada hərəkət", "Barrette" - "Xətti işıq", "Boundary light" - "Sərhəd nişanı", "Broadcast" - "Radioyayım", "Celestial navigation" - "Astronaviqasiya", "Centre of pressure" - "Təzyiq mərkəzi", "Commercial aviation" - "Kommersiya aviasiyası", "Commercial invoice" - "Yük fakturası", "Consignee" - "Yükalan", "Control surface" - "İdarəetmə səthi","Convestion cloud" - "Konvektiv bulud", "Cruising speed" - "Kreyser sürəti", "Customs control" - "Gömrük nəzarəti", "Customs duties" - "Gömrük rüsumları", "Customs procedure" - "Gömrük qaydaları", "Danger area" - "Təhlükəli zona" kimi müəyyən olunub.

**Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!**

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda**
**Dr. Vaiz Səmədov sizə kömək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.

YENİ MÜSAVAT
N 256 (6870) 7 dekabr 2017

# Valideynlərin sosial şəbəkə aludəçiliyi övladlarına mənfi təsir edir

**Psixoloq:** "Hansısa bir uşağın problemindən danışarkən birinci növbədə ailəyə diqqət etmək lazımdır"



**İnternet artıq gündəlik həyat tərzimizə çevrilib desək, yanılmarıq. Hər təbəqədən olan insanlar, o cümlədən yeniyetmə, gənc yaşlı, qoca artıq bu gün mütləq şəkildə internetdən, virtual məkandan istifadə edir. Getdikcə insanlarda internet asılılığı yaranmağa başlayıb. Gecədən səhərədək kompüterin arxasında vaxt keçirən və yaxud telefondan asılıb qalan insanların sayı kifayət qədər çoxdur. Beləliklə, dünyada asılılıqlar arasında internetdən asılılıq dördüncü yerdədir. Son illərdə bir çox inkişaf etmiş ölkələrdə, o cümlədən İngiltərə, Almaniyada insanların internetdən asılılığı kütləvi şəkil aldığı üçün reabilitasiya mərkəzləri açılıb.**

Araşdırmalar onu göstərir ki, internetdən asılı olan qadınların da sayı sürətlə artmaqdadır. Doğrudur, bir çox hallarda qadınlar daha çox məişət problemləri ilə bağlı hüquqi, həkim məsləhətlərini, mətbəxlə bağlı informasiyaları izləmək üçün sosial şəbəkələrdən istifadə etsə də, böyük bir qismi yaxınları ilə şəxsi problemlərini, bölüşmək, dedi-qoduları müzakirə etmək üçün internetdən asılı vəziyyətə düşürlər. "ComScore"nin sosial şəbəkələrdən istifadə ilə bağlı son hesablamalarına görə Latın Amerikasında qadınlar gündə 9 saata yaxın vaxt keçirir. Ümumiyyətlə, dünya miqyasında qadınlar gündə 7 saata yaxın, kişilər isə 5 saat sosial şəbəkələrdən istifadə edir. Bu isə insanlar arasında ünsiyyətin məhdudiyyətinə, valideynlərin öz övladlarına çox az vaxt sərf etməsinə gətirib çıxarır.

**Maraqlıdır, valideynlərin sosial şəbəkədə çox vaxt keçirməsi övladlarına necə təsir edir?**

**Məsələ ilə bağlı tanınmış psixoloq Elnur Rüstəmov "Yeni Müsavat"a danışıb:**

"Ümumiyyətlə, uşağın problemi əvvəlcə valideynin problemidir. Bu gün kifayət qədər internetdən asılı olan valideynlər var ki, onlar evdə olduqları vaxt uşaqlarla vaxt keçirmək istəmirlər. Nəticədə bir müddət keçdikdən sonra uşaqlarda davranış, ünsiyyət problemi, fobiyaların yaranmasına səbəb olur. Ona görə də hansısa bir uşağın problemindən danışarkən birinci növbədə ailəyə diqqət etmək lazımdır. Bu zaman bəlli olur ki, valideynin problemi heç də uşağın problemindən az deyil. Bu problemlər təkcə ailədən deyil, həm də sosial şəbəkələrdə çox vaxt keçirməkdən qaynaqlanır. Hətta uşağın əlinə mobil telefon verirlər ki, sakit dayansın və sairə. Uşaq internetdən istifadə edirsə, yenə də valideyn buna ciddi nəzarət etməlidir. Bunun üçün bəlli bir zaman, limit ayrılmalıdır".

Araşdırmalara görə, dünyada daha çox yəhudi xalqı öz övladlarına zaman ayırır. Bu xalqın nümayəndələri övladlarına qarşı xüsusi həssaslıqla yanaşır, onların tərbiyəsi ilə hələ erkən yaşlarda məşğul olmağa başlayır. Xüsusən də yəhudi analar övladları ilə çox zaman keçirir.

❑ **Xalidə GƏRAY**



# Hava pisləşəcək, yağış, sulu qar yağacaq

**Dekabrın 7-də Bakı və Abşeron yarımadasında arabir yağış yağacağı, yarımadanın bəzi yerlərində intensiv olacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, şəhərətrafı ərazilərdə yağışın sulu qarla qarışıq yağma ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayimləşəcək.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 3-5, gündüz 5-8, Bakıda gecə 3-5, gündüz 5-7 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 755 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək, nisbi rütubət 85-95 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-4, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacağı gözlənilir.

Dekabrın 7-də Abşeron yarımadasında güclü xəzri küləyi fonunda temperaturun aşağı enəcəyi və rütubətli hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.

ETSN hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq da edib. Bildirilir ki, dekabrın 7-də Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu 3-5 dərəcə aşağı enəcək, maksimal temperatur 5-8 dərəcə isti təşkil edəcək.

# iPhone X telefonları satışda: orijinalı necə tanımalı?

Telefonlar mağazadan asılı olaraq, 149 manat qiymət fərqi ilə satılır...

**Çərçivəsiz ekranı ilə 2017-ci ilin ən önəmli trendi iPhone X-ı artıq paytaxtın istənilən telefon mağazasından almaq mümkündür. iOS əməliyyat sistemindəki yenilənmə "iPhone X" smartfonundakı "Face İD"-ni sıradan çıxardığı üçün bu telefonları alanların geri qaytardığına dair fikirlər səsləndirilirdi.**





Yayılmış məlumatlara görə, dekabrın 3-də yaranmış problem yalnız 11,2 versiyalı əməliyyat sistemləri üçün xarakterikdir. "Apple" mütəxəssisləri isə istifadəçiləri təlaşlanmamağa çağırır. Nasazlıq bütün cihazlara aid olub və cihazın ayarlarını yenidən zavod istehsalına qaytarmaqla həllini tapır. Bundan başqa, bu günlərdə cihazın öz-özünə sönüb və yenidən işə düşdüyü də deyilir. Ona görə "Apple" şirkəti təcili olaraq tam işlənilməmiş yenilənməni buraxmalı olub. iOS 11.2-də köhnə nasazlıqlar aradan qaldırılıb və "iPhone 8", həmçinin "iPhone X" istifadəçilərinə naqilsiz enerji doldurulması funksiyasından istifadə edilməsi imkanı verilib.

Qeyd edək ki, əvvəllər paytaxtda iPhone 8, iPhone 8 Plus telefonlarına rast gəlsək də, iPhone X tapmaq elə də mümkün deyildi. Satıcılar yalnız sifarişlə gətirə biləcəklərini deyirdilər. İndi isə iPhone X-ləri istənilən, hətta metroların üstündə yerləşən kiçik telefon mağazalarında da, istər kredit, istərsə də nağd şəkildə əldə etmək mümkündür. Biz də iPhone X-in qiymətini, alıcılarının olub-olmadığını, alanlar arasında bu telefonları geri qaytaranların olub olmadığını öyrənmək üçün bir neçə telefon mağazasına baş çəkdik. Apardığımız müşahidələr göstərdi ki, telefon mağazalarına görə qiymətdə ciddi fərq var. Yəni mağazalar bu telefonları ən az 100 manat fərqlə satır.

**Belə ki, "Neftçilər" metrosu yaxınlığında yerləşən Maxi.az mağazasında iPhone X 64 GB Space Gray 2399 manata, iPhone X 256GB Space Gray və iPhone X 256GB Silver 2799 manata satılırdı. Satıcının dediyinə görə, yeni iPhone alıcıları kifayət qədərdir:** "Nağd alan demək olar ki, yoxdur. Daha çox kreditlə alırlar. 20 faiz ilkin ödəniş tələb edirik. Yəni 608 manat 50 qəpik. 12 aylıq kreditlə aya 236 manat 10 qəpik, 6 aylıq kreditlə isə aya 440 manat 68 qəpik düşür. Neçə aylığa götürmənizdən asılı olmayaraq ilkin ödəniş dəyişməz olaraq qalır. Bu telefonları alanlar arasında narazılıq edən və ya gətirib qaytaran yoxdur".

**"Həzi Aslanov" stansiyası yaxınlığındakı telefon mağazasında isə İphone X iPhone X 64 GB Space Gray 2250 manata satılırdı. Telefonların orijinal olduğunu deyən satıcı Əfqan Əliyev digər mağazalarda baha satılmasının səbəbini bu mağazaların adlarının tanınması ilə əlaqələndirdi:** "Çox vaxt deyirlər ki, orijinal telefonlar yalnız "İrşad" və bu kimi digər böyük telefon mağazalarında olur. Ancaq bizim telefonlar da tam orijinaldır. Zəmanət də veririk. iPhone X-larımız də tam orijinaldır. Nəsə problem çıxsa, biz alan şəxsə pulunu artıqlaması ilə qaytara bilərik. Sadəcə olaraq, adları ilə tanınan böyük telefon mağazaları insanlarda elə təəssürat yaradıb ki, yalnız onlardan telefon alınmalıdır, kim kiçik telefon mağazalarından telefon alsa, tez xarab olacaq. Halbuki mən insanlar tanıyıram ki, bu cür məşhur telefon dükanlarından baha qiymətə telefon alıb 6 aydan sonra xarab olub. Düzəltmək üçün də insanları get-gələ salırlar. Düzdür, kiçik telefon dükanları arasında da saxta telefon satanlar var. Ancaq alıcı zəmanət kağızına baxmaqla telefonun orijinal olub olmadığını ayırd edə bilər".

"İrşad"da isə iPhone X 64GB 2399 manata, Apple iPhone X 256GB 2799 manata satılırdı. Qiymətlər əksər böyük telefon mağazalarında eyni olsa da, kredit şərtləri fərqlənir. Belə ki, Maxi.az-dan fərqli olaraq burada ilkin ödəniş çox, aylıq ödəniş isə azdır. Məsələn, 12 ay müddətinə kreditlə Apple iPhone X 256GB almaq istəsəniz, ilkin ödəniş olaraq 1399 manat 50 qəpik, aylıq isə 116 manat 63 qəpik ödəməlisiniz. Ancaq kiçik mağazalarla böyük telefon mağazalarındakı iPhone X 64 GB qiymətini müqayisə etsək, aralarında nə az, nə çox 149 manat fərq olduğunu görərik.

Qeyd edək ki, yeni iPhone X telefonları iPhone-un 10-cu ili üçün hazırlanıb və modelin adındakı X roma rəqəmi ilə şirkətin 10-cu ilinə işarədir. ABŞ-ın "Apple" texnologiya şirkəti yeni nəsil iPhone modellərinin patentini almaq üçün hərəkətə keçib. Şirkət elastik ekranlı və qatlana bilən yeni modelləri istehsal etməyə hazırlaşır. Daha öncə "Samsung" şirkəti də bu növ cihazların üzərində işlədiyini elan etmişdi. Lakin "Samsung" bu formaları təkcə ağıllı smartfonlara tətbiq etməyi planlaşdırır. Apple isə bu növ cihazları smartfonlarla yanaşı, laptop, tablet və saatlara da tətbiq edəcək.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 256 (6870) 7 dekabr 2017

# Biri 2500 dollara olan toyuqlar

İndoneziyada dimdiyindən daxili orqanlarına qədər hər yeri qara olan "Ayam Cemani" cinsi toyuqlar böyük maraq görür. Bu diqqətlə yanaşı, qiymətləri də hər keçən gün artmağa davam edir. Genetik bir mutasiya ucbatından bədənindəki tüklərdən, daxili orqanlarına qədər qapqara rəngdə olan toyuqların təkcə yumurta və qanları normal toyuqlarla eyni rəngdədir. Onların ecazkar bir görünüşləri olduğu deyilir.



Günəş işığının altında qapqara tüklərinin arasında mavi və yaşıl işıltılar gözə çarpır. Bu nadir cinsin toyuqları 2 kilo, xoruzları isə 2.5-3 kilo arasındadır. Bir zamanlar ABŞ-da onların bir ədədi 2500 dollara satılırdı. Varlılar tərəfindən saxlanan, bəslənən bu qara kömür rəngdə olan toyuqların öz sahibinə daha çox sərvət və güc gətirdiyi, bəzənsə şans əlaməti olduğu deyilir.



# Öncə həkimə getdi, bir gün sonra öldü

ABŞ-ın Arizona ştatındakı Finisk şəhər sakini Alani Murrieta həkimlərin qrip diaqnozu qoymasından bir gün sonra dünyasını dəyişib. Bu haqda "The Independent" qəzeti xəbər verir. Həkimlər 20 yaşlı anaya qrip əleyhinə dərmanlardan ibarət resept yazıblar. Bir müddət sonra qız nəfəs almaqda çətinlik çəkdiyi üçün yenidən xəstəxanaya müraciət edib. Daha sonra aydınlaşıb ki, gənc qadın pnevmoniyadan əziyyət çəkir. Murrietanın vəziyyəti pisləşən kimi həkimlər onu daha həssas şəkildə müayinə ediblər. Rentgen göstərib ki, ilkin diaqnoz səhv olub. Bu səbəbdən də onu xəstəxanadan evə buraxıblar. Amma o, hadisədən 8 saat sonra dünyasını dəyişib. Qadının iki oğlu anasız qalıb. Gənc ana qrip xəstəliyinin ağırlaşmasının qurbanı olub. Nəşr Böyük Britaniyada müvafiq hadisələrin statistikasını aparır. Oxford Vaccine Group-un hesablamalarına görə, ölkədə hər il qrip ağırlaşmasından 600 nəfər ölür.

# Qəfildən varlanmaq insanı dəli edə bilər

Bir anda çox böyük pullar qazanmaq beyni məhv edir. Amerikalı alimlər bu nəticəyə gəliblər. Onların fikrincə, bir anda böyük miqdarda lotereya udan şəxslərin beynində pulun da təsiri ilə ciddi dəyişiklik yaşanır, hətta həyatları alt-üst olur. Alimlər bunu sübut etmək üçün daha öncə Amerikada lotereyadan 558 milyon dollar udan Mark Hill və həyat yoldaşı Sindi üzərində araşdırma aparıb.

"Discovery News"da yer alan xəbərə görə, Mark və Sindinin beyinləri hormon ifrazı nəticəsində yaşanan dəyişikliklər üzündən yaxın zamanda normal bir beyindən fərqli reaksiyalar göstərməyə başlayacaq. İlk zamanlarda hədsiz miqdarda ifraz edilən Dopamin adlı maddə daha sonra beyində qarmaqarışıq bir biokimyəvi təsir nəticəsində öz yerini gərginlik və depressiyaya verə bilir. Bu zaman iradəsi zəif olan adamların dəli olma ehtimalı da güclüdür. Alimlər onu da sübut edib ki, qısa vaxtda çox pula sahib olmaqla insan xoşbəxtlik yox, diqqət qazanır.





# Artıq dünyanın ən qəşəng qızı odur

Britaniya KİV-ləri 6 yaşlı rus qızı Anastasiya Knyazevanı "dünyanın ən qəşəng qızı" ünvanına layiq görüblər. Qız barədə "The Daily Mail" nəşri də yazıb. Jurnalistlərin sözlərinə görə, uşaq tamaşaçıları gəlinciyə bənzər xarici görünüşü və böyük mavi gözləri ilə heyran edib.

Uşaq model kimi çalışır, anası tərəfindən idarə olunan İnstaqram səhifəsini isə 500 min nəfər izləyir. Knyazevanı fransalı model Tilan Blondo ilə müqayisə edirlər. O da keçmişdə, daha doğrusu, 6 yaşı olanda dünyanın ən gözəl qız uşağı hesab edilirdi və hazırda Fransanın Vogue jurnalının gənc modellərindən biridir.

6 yaşlı Anastasiya hazırda Rusiya agentliklərindən birində çalışır və eyni vaxtda bir neçə brendin siması sayılır. Uşaq modelin anası qızının fotosessiyasından olan çəkilişlərə yanaşı, gündəlik şəkillərini də paylaşır. Şəhərlərdə isə dünyanın bütün nöqtələrindən olan insanlar qızı tərifləyirlər.





QOÇ - Təxminən saat 15-ə qədər ümumi ovqatınızda gərginlik müşahidə oluna bilər. Bu səbəbdən də həmin ərəfədə riskli işlərin həllini təxirə salın. Sonrakı müddət qismən sakit keçəcək.

BUĞA - Qarşınızda bu ayın ən uğurlu günlərindən biri durur. Bu səbəbdən də verilmiş imkanlardan istifadə edin. Günün ilk yarısında qazanmaq ehtimalınız da var. Düşmənçilikdən əl çəkin.

ƏKİZLƏR - Əsas gücünüzü sevgi amilinə yönəldin. Çünki bu gün yeganə rahatlığı məhəbbətdə tapacaqsınız. Ünsiyyətdə olduğunuz digər insanlarla isə ciddi mübahisələriniz gözlənilir.

XƏRÇƏNG - Əgər fəaliyyətlə bağlı ciddi bir işiniz yoxdursa, günün əsas hissəsini gəzinti və qonaqlıqlarda keçirin. Sevən aşiqlərsə mütləq görüşə çıxmağa çalışmalıdır. Bəxtinizə inanın.

ŞİR - Gün ərzində Ay bürcünüzdə olsa da, rastlaşdığınız hadisələr ovqatınızın mənfi müstəviyə yönəlməsinə imkan verməyəcək. Ayın sonuna qədərki planlarınızı məhz bu gün tutmalısınız.

QIZ - Ulduzların düzümü şəxsi büdcənizi artırmaq üçün geniş imkanlarınızın olduğunu bəyan edir. Ələlxüsus da çoxdan bəri ala bilmədiyiniz məbləği əldə etmək üçün fəallaşmalısınız.

TƏRƏZİ - Səhhətinizi kontrolda saxlasanız, ixtiyarınızda olan bu təqvimdən razı qalacaqsınız. Fəaliyyət zəminində isə bir neçə yeniliyin şahidi olacaqsınız. Yeni təkliflərlə razılaşın.

ƏQRƏB - Tanrının qüdrətini duymaq üçün gözəl vaxtdır. Tövbə etmək, nəzir və ya cədəqə vermək, yaxud da, sadəcə, ziyarətə getmək əsəblərinizi xeyli sakitləşdirə bilər. Bundan yararlanın.

OXATAN - Son zamanlar az qala hamı fikirlərinizə qarşı çıxır. Lakin narahatçılığa heç bir əsas yoxdur. Çünki nahardan sonra hərəkətlərinizdə əsasən haqlı olduğunuzu çoxları hiss edəcək.

OĞLAQ - Bəri başdan yeni və sevindirici xəbərlərə hazır olun. Yaxın ünsiyyətdə olduğunuz şəxslərlə münasibətləri mülayimləşdirin. Dara düşən simsarlarınıza, dostlarınıza yardım əlinizi uzadın.

SUTÖKƏN - Qarşınızda duran bu təqvim sizin üçün çox uğurlu keçməlidir. İstər əməkdaşlıq zəminində və işgüzar sövdələşmələrdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq.

BALIQLAR - Çoxdan görüşmədiyiniz adamlarla rastlaşa bilərsiniz. Amma çalışın ki, onlara giley-güzardan yox, sevindirici məqamlardan danışasınız. İndi problemi danışmaqla həll etmirlər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yeni il ağacı bəzəyirdilər, öldülər

Guatemalada yeni il ağacını bəzəyən beş nəfər həyatını itirib. Meksika sərhədinə yaxın El Carmen Frontera bölgəsində baş tutan faciənin qurbanları 17 - 24 yaşları arasındadır.



Məlumatda bildirilir ki, biri qadın olmaqla, 5 nəfər küçədə qurulan böyük yeni il ağacını bəzəyərkən elektrik vurduğu üçün dünyasını dəyişib. Gənclərdən biri əsas güc naqilinə toxunduğu üçün elektrik axını metal ağac boyunca yayılıb. Digər gənclər də elektrik axınından canlarını qurtara bilməyiblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100